# Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində Tvinninq Metodologiyası (həmkar təcrübəsi mübadiləsi)



Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir

# QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞI İLƏ MÜBARİZƏ SAHƏSİNDƏ TVİNNİNQ METODOLOGIYASI (HƏMKAR TƏCRÜBƏSİ MÜBADİLƏSİ)

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının II mərhələsi- "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması"


Hazırladı:

**Patrisia Munoz Karrera**

və

**Turqut Mustafayev**



Avropa Şurası

*Bu sənəd Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi və Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (PGG) Proqramı II – 2019-2022 proqramı çərçivəsində Avropa Şurası tərəfindən icra edilən "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb.*

*Bu materialda ifadə edilmiş rəylərə görə məsuliyyəti müəlliflər daşıyır və həmin rəylər Avropa Şurasının və Avropa İttifaqının rəsmi movqeyini əks etdirməyə bilər.*

Bu nəşr tipoqrafik və qrammatik səhvləri düzəltmək üçün SPDP Redaksiya Şöbəsi tərəfindən redaktə olunmamışdır.

Bu sənədin mətninin hamısının və ya bir hissəsinin təkrar nəşri və ya tərcüməsi ilə bağlı bütün sorğular Kommunikasiya Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır. Bu sənədin bir hissəsinin (500 sözə qədər) təkrar nəşrinə kommersiya məqsədləri istisna olmaqla icazə verilir, o şərtlə ki, mətnin bütövlüyü saxlanılsın, kontekstdən kənara çıxmalar olmasın, mətnin mahiyyəti, əhatə dairəsi və məzmunu natamam məlumat təqdim etməsin, yaxud oxucunu yanlış yönləndirməsin. İstinad mətn həmişə aşağıdakı kimi qeyd edilməlidir: "©Avropa Şurası, 2022".

Bu sənədin hamısının və ya bir hissəsinin təkrar nəşri və ya tərcüməsi ilə bağlı bütün digər müraciətlər Kommunikasiya Direktorluğuna(F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır.

Bu sənədlə bağlı bütün digər yazışmalar Demokratiya üzrə Baş Direktorluğun Gender bərabərliyi bölümünə (F-67075 Strasbourg Cedex və ya vaw.gender.cooperation@coe.int) ünvanlanmalıdır.

Üz qabığı və tərtibat: 360 Marcom
Üz qabığındakı şəkil: Nepool/Shutterstock.com

© Avropa Şurası, noyabr 2022-ci il
Bütün hüquqlar qorunur. Müəyyən şərtlərlə Avropa İttifaqına lisenziya verilir.

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **İXTİSARLARIN SİYAHISI** | **5** |
| **GİRİŞ** | **7** |
| **TVİNNİNQ METODOLOGİYASI (HƏMKAR TƏCRÜBƏSİ MÜBADİLƏSİ)** | **9** |
| Ümumi məlumat və əsaslandırma | 9 |
| “Qızıl standart”: İstanbul Konvensiyası | 9 |
| Tvinninq Methodologiyası: məqsədlər | 11 |
| **TVİNNİNQ MODELİ: MƏRHƏLƏLƏR, ADDIMLAR VƏ MEXANİZMLƏR** | **12** |
| Mərhələ 1: Tvinninq təcrübəsinin əhatə dairəsi, məqsədi və əlavə dəyərinin müəyyən edilməsi | 13 |
| Mərhələ 2: Tvinninq çərçivəsində təcrübə mübadiləsinin dinamikası və formatı | 16 |
| Mərhələ 3: Təlim nəticələrinin təsirinin qiymətləndirilməsi və irəliləyiş | 19 |
| **NƏTİCƏ** | **22** |
| **QQZ/MZ İLƏ MÜBARİZƏ VƏ GENDER BƏRABƏRLİYİ SAHƏSİNDƏ EDİLƏN HƏMKAR MÜBADİLƏLƏRİ ÜZRƏ QABAQCIL VƏ PERSPEKTİVLİ TƏCRÜBƏLƏR** | **23** |
| Gürcüstan | 23 |
| Xorvatiya | 24 |
| Rusiya Federasiyası | 26 |
| **ƏLAVƏ RESURSLAR VƏ FAYDALI KEÇİDLƏR** | **27** |
| **ƏLAVƏLƏR** | **29** |
| I Tvinninq layihəsi çərçivəsində təlim öncəsi sorğu | 30 |
| II Tvinninq layihəsi çərçivəsində təlim sonrası sorğu | 33 |
| III Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı vəziyyət haqqında hesabat | 37 |

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **CEDAW** | Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya |
| **AŞ** | Avropa Şurası |
| **COVID-19** | Koronavirus xəstəliyi (2019) |
| **MZ** | Məişət zorakılığı |
| **Aİ** | Avropa İttifaqı |
| **GREVIO** | Avropa Şurasının Qadınlara Qarşı Zorakılıq və Məişət Zorakılığına Qarşı Fəaliyyət üzrə Ekspertlər Qrupu. GREVIO İstanbul Konvensiyası tələblərinin tərəf dövlətlər tərəfindən yerinə yetiirilməsinə nəzarət edən müstəqil ekspert orqanıdır. |
| **PGGII 2019 - 2022** | Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının II mərhələsi |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **QQZ** | Qadınlara qarşı zorakılıq |

# GİRİŞ

Qadınlara qarşı zorakılığın və məişət zorakılığının (QQZ/MZ) qlobal miqyasda yayılması dövlətlərin yerlərdə *qanunla təmin olunan* və *faktiki* bərabərliyə nail olmaq səylərinə ciddi çətinliklər yaratmaqda davam edir. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı qadınların malik olduğu insan hüquqlarının ciddi şəkildə pozulması deməkdir və qalıcı xarakterdə olduğunu nəzərəçarpacaq dərəcədə sübut etmişdir. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı irqindən, yaşından, coğrafi və fiziki xüsusiyyətlərindən, iqtisadi, mədəni və/və ya dini mənsubiyyətindən asılı olmayaraq bütün qadınlara təsir edir.

Dəlillər göstərir ki, qadınlara qarşı zorakılıq gender bərabərsizliyinin nəticəsidir. Bu, gender rollarının və sosial normaların şərtləndirdiyi, qadın və kişilər arasındakı qeyri-bərabər güc münasibətlərindən qaynaqlanır, bu isə qadınların cəmiyyətdə daha aşağı mövqedə durmasına səbəb olur (ÜST, 2009). Bu səbəbdən, gender bərabərliyinin təşviqi və əldə edilməsi qadınlara qarşı zorakılığın qarşısının alınması və QQZ/MZ qurbanlarının müdafiəsi üçün vacib bir elementdir.

Bu yenilikçi Tvinninq metodologiyası, Yaxşı İdarəçilik üçün Tvinninq proqramının II mərhələsi (PGGII) çərçivəsində Avropa İttifaqı və Avropa Şurasının birgə ərsəyə gətirdiyi "İstanbul Konvensiyası və digər gender bərabərliyi standartları haqqında Azərbaycanda məlumatlılığın artırılması" layihəsi üzrə işlənib hazırlanmışdır. Bu Tvinninq metodologiyasının məqsədi qadınlara qarşı zorakılıq, məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təminatı sahəsində qanunvericilik və siyasət bazasını təkmilləşdirmək üçün dövlət qurumları arasında həmkar təcrübəsi mübadiləsini təşviq etməkdir. Sözügedən metodologiya bu sahədə əsas standartın tətbiqi üzrə həmkar təcrübəsi mübadiləsini gücləndirmək məqsədi daşıyır: İstanbul Konvensiyası kimi tanınan, qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Avropa Şurası Konvensiyası.

Bu günə qədər qadınlara qarşı zorakılıq, məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təminatı mövzusunda məhdud sayda Tvinninq təcrübəsi işlənib hazırlanmış və tətbiq edilmişdir. İlkin Tvinninq mexanizmi tematik istiqamətli deyil, əksinə ölkələr arasında mübadiləni təşviq etmək üçün ümumi bir vasitədir. Bundan əlavə, indiyə qədər bu qəbildən olan həmkar təcrübəsi mübadiləsi üçün bəzi rəhbər prinsiplər yaradılsa da, Tvinninq fəaliyyətləri üçün ayrıca bir metodologiya hazırlanmamışdır. Buna görə də bu Tvinninq metodologiyası aşağıdakı üç əsas səbəbə görə özlüyündə unikal mexanizmi təmin edir:

- bu qəbildən olan həmkar təcrübəsi mübadiləsinin necə hazırlanacağına dair strukturlaşdırılmış yanaşma təklif edir;
- qadınlara qarşı zorakılıq, məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təminatı mövzusuna xüsusi diqqət yetirib və Avropa Şurasının qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Konvensiyasını (İstanbul Konvensiyası) bu sahədə siyasətin, qanunvericiliyin və təcrübənin təkmilləşdirilməsi üçün əsas standart kimi istifadə edir; və
- öz aralarında həmkar təcrübəsi mübadiləsi ilə daha müstəqil şəkildə məşğul olmaq istəyən dövlət qurumları üçün və onların müvafiq institusional şərtlərinə, ehtiyaclarına və prioritetlərinə əsaslanaraq bir vasitə kimi istifadə edilə bilər. Bu vacib bir faktdır, çünki hal-hazırda Tvinninq layihələri əsasən Avropa İttifaqına (Aİ) üzv olmayan ölkələr üçün mövcuddur (Avropa Qonşuluğu və ya qoşulma öncəsi mexanizm üzrə). Hətta Aİ ölkələri tərəfdaş kimi iştirak edə bilsələr də, birbaşa benefisiar ola və ya öz təşəbbüsü ilə Tvinninq layihələri üçün müraciət edə bilməzlər. Buna görə də bu metodologiya öz əhatə dairəsini genişləndirməyə çalışır.

Bundan əlavə, bu Tvinninq metodologiyası İstanbul Konvensiyasında təsbit edilmiş standartları ratifikasiya statusundan asılı olmayaraq ölkələr arasında təşviq etməklə əlavə dəyər gətirir və buna görə də Avropa Şurasına

(AŞ) üzv dövlətlərin sərhədlərindən kənarda həyata keçirilə bilər. Bu səbəblərə görə bu sənəddə təqdim olunan metodologiya yenilikçi təcrübəni təmsil edir.

Bu Tvinninq metodologiyasının işlənib hazırlanması Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyasına və onun qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə 2-ci məqsədinə uyğundur. O, həmçinin strategiyada qarşıya qoyulan digər məqsədlərlə də əlaqəlidir. Avropa Şurasının Gender Bərabərliyi Strategiyası Gender Bərabərliyi Komissiyası tərəfindən hazırlanır və təsdiqlənir. Üzv dövlətlər onu həyata keçirməli və bu barədə hesabat verməlidirlər. Bu səbəbdən strategiya, İstanbul Konvensiyasını ratifikasiya etmək statusundan asılı olmayaraq, Avropa Şurasının tərkibinə daxil olan 46 üzv dövlətə şamil olunur və bununla da bu Tvinninq metodologiyasının aktuallığını gücləndirir.[1]

İzlənilməsi aydın olan addımlara malik üç mərhələ ətrafında qurulmuş bu Tvinninq metodologiyası istifadəçi üçün asan və təcrübədən keçirməklə öyrənmək yanaşmasına əsaslanır. Bu, yeni biliklər əldə etmək, həmkar təcrübəsindən öyrənmək, eləcə dəqabaqcıl və perspektivli təcrübələr mübadiləsini əhatə edir ki, müxtəlif dövlət orqanlarına təcrübələrini bölüşmək, bir-birilərindən öyrənmək, əldə etdikləri biliklər barədə fikir mübadiləsi aparmaq və müvafiq institusional şəraitdə tətbiq etmək imkanı verəcəkdir.

Nəhayət, bu metodologiya İstanbul Konvensiyasında təsbit edilmiş standartlar əsasında Tvinninq təcrübələrinin qadınlara qarşı zorakılıq, məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təminatına təsirinin necə planlaşdırılması, aparılması, monitorinqi və qiymətləndirilməsi üzrə praktiki tövsiyələr və təlimatları təmin edir.

1. Avropa Şurasının Gender Bərabərliyi üzrə strategiyası ilə bu keçiddə tanış ola bilərsiniz: www.coe.int/en/web/genderequality/gender-equality-strategy

# TVİNNİNQ METODOLOGİYASI (HƏMKAR TƏCRÜBƏSİ MÜBADİLƏLƏRİ)

## Ümumi məlumat və əsaslandırma

Aşağıdakı bölmələrdə qeyd olunan metodologiya qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində Avropa Şurası tərəfindən koordinasiya edilən həmkar təcrübəsi mübadilələrinin yaxşı və ümidverici təcrübələrinə əsaslanır. Bu metodologiya Avropa İttifaqının Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları çərçivəsində hazırlanmış Aİ Tvinninq mexanizminin əhatə dairəsini genişləndirir. Metodologiya, həmçinin İstanbul Konvensiyası kimi tanınan qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasında müəyyən edilmiş standartları vurğulamaqla qadınlara qarşı zorakılığa və məişət zorakılığına mühüm diqqət yetirir. Tvinninq mexanizmi o vaxtdan bəri Avropa ölkələrində sektorlar üzrə Aİ üzvü olan dövlətlər və benefisiarlar və ya tərəfdaş ölkələr arasında institusional əməkdaşlığı gücləndirmək üçün bir vasitə kimi geniş istifadə olunur.

Tvinninq layihələrinin məqsədi tərəfdaşlar arasında fəaliyyətlər vasitəsilə institusional səviyyədə konkret əməliyyat nəticələrinin əldə edilməsi baxımından dövlət sektorunda təcrübənin inkişafı və artırılması üçün imkanlar yaratmaqdır. [2]Tvinninq layihələri əməkdaşların təlimləndirilməsi və strukturların yenidən təşkil olunmasına dəstək verməklə tərəfdaş ölkədə dövlət orqanlarının potensialını artırmağı da hədəfləyir. Tvinninq layihələri, həmçinin, milli qanunvericilik və normaların Avropa və beynəlxalq standartlara uyğunlaşdırılmasını, dövlət və vətəndaş cəmiyyəti arasında dialoq daxil olmaqla çoxtərəfli dialoq və əməkdaşlığın gücləndirilməsini dəstəkləyə bilər.

Tvinninq layihəsində benefisiar və ya tərəfdaş ölkə - bənzər quruluşa və mandata malik Aİ üzvü olan bir dövlətin qurumu ilə əməkdaşlıq etmək üçün işçi heyəti və potensiala malik olan bir dövlət idarəsidir. Tvinninq təcrübələrində benefisiar öz işçilərini səfərbər edir, öhdəlik və sahiblik nümayiş etdirir. Əlavə olaraq, tərəfdaş ölkə davamlı olaraq dəyişiklikləri və qabaqcıl təcrübələri qəbul və tətbiq edir.

Tvinninq birtərəfli texniki yardım vasitəsi deyil, əksinə, birgə öhdəliyin həlledici rol oynadığı qarşılıqlı öyrənmə prosesidir. Bu mənada Tvinninq həmkar təcrübəsi mübadiləsinin bir növüdür. Bu metod biliklərin hazırlanması və yayılması üçün dəyərli yanaşmadır. O, həm də dövlət sektorunun institusional güclənməsinə bir yardım aləti kimi xidmət edir, çünki tərəfdaş ölkələri ortaq öhdəlik, məqsədlər və gözləntilərə əsaslanan qarşılıqlı öyrənmə prosesində iştirak etməyə sövq edir. Bundan əlavə, Tvinninq "təcrübədən keçirməklə öyrənmək" prinsipinə, qabaqcıl və perspektivli təcrübələrin paylaşılmasına əsaslanır. Tvinninq layihələri seminarlar, təlim sessiyaları, ekspert missiyaları, tanışlıq səfərləri, təcrübə və hüquqi və ya siyasi məsləhət/tövsiyələrin verilməsi kimi bir sıra fəaliyyətləri əhatə edə bilər.

## "Qızıl standart": İstanbul Konvensiyası

Bu Metodologiyanın diqqət mərkəzində İstanbul Konvensiyası kimi tanınan, Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Avropa Şurası Konvensiyası dayanır. Bu konvensiya - qadınlara qarşı zorakılığa və məişət zorakılığına son qoyulmasını həm *qanunla təmin olunmuş şəkildə*, həm də *faktiki* gender bərabərliyinə nail olmaq yolunda həlledici addım kimi qiymətləndirən normativ bazadır.

2. Aİ Tvinninq (Tvinning) veb-saytı: https://ec.europa.eu/neighbourhood-enlargement/tenders/twinning_en

İstanbul Konvensiyasının preambulasında bildirilir ki, qadınlara qarşı zorakılıq və məişət zorakılığı struktur xarakterli, qadın və qızların hüquq və imkankarını daha da məhdudlaşdıran və bununla da onların sosial, iqtisadi və siyasi fəaliyyətinə mane olan qeyri-bərabər səlahiyyət münasibətlərinin nəticəsidir. Buna görə də İstanbul Konvensiyası müəyyən edir ki, QQZ/MZ-nin aradan qaldırılmasına qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və gender bərabərliyinə nail olunması nöqteyi-nəzərindən daha geniş kontekstdə baxılmalıdır. Konvensiyanın mühüm elementi - QQZ və MZ-nin gender xarakterli fenomen olduğunu anlamaqdan ibarətdir. Bu, o deməkdir ki, qadınlar gündəlik həyatda cinsinə görə, yəni qadın olduqları üçün zorakılığa məruz qala bilərlər və zorakılığın müəyyən formaları, xüsusən də məişət zorakılığı qadınlara qeyri-mütənasib şəkildə təsir edir. Konvensiya qabaqlayıcı tədbirlərin, müdafiə və dəstək mexanizmlərinin, istintaq və məhkəmə proseslərinin zorakılığın bu gender məfhumuna yönəlməsini təmin etmək üçün tədbirlər təklif edir. Konvensiya məişət zorakılığı daxil olmaqla kişilərdən daha çox qadınlara təsir edən zorakılıq formalarına diqqət yetirir, lakin eyni zamanda oğlanların və kişilərin də məişət zorakılığının qurbanı ola biləcəyini qəbul edir.

İstanbul Konvensiyası 2011 -ci ildə İstanbulda imzalanmaq üçün açıq elan edildi və o vaxtdan bəri qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində "qızıl" standart olaraq geniş şəkildə qəbul edilib. Bu günə qədər, QQZ/MZ ilə mübarizə aparmaq sahəsində ən əhatəli beynəlxalq müqavilədir. Dövlətlər, *faktiki* gender bərabərliyinə nail olmaq və QQZ və MZ-nə son qoymaq üçün tədbirlərin görülməsini təmin etməyə məsuldur, buna görə də Tvinninq metodologiyasının həmkar təcrübəsi mübadiləsi və institusional öyrənmə prosesi İstanbul Konvensiyasında təklif olunan tədbirlərdən açıq şəkildə faydalana bilər.

Qısa şəkildə ifadə etsək, İstanbul Konvensiyası aşağıdakı dörd əsas prinsipə əsaslanır:[3]

| QABAQLAMA | MÜDAFİƏ | CİNAYƏT TƏQİBİ | ƏLAQƏLƏNDİRİLMİŞ SİYASƏTLƏR |
|---|---|---|---|
| **Əgər ölkə İstanbul Konvensiyasını ratifikasiya edibsə, o, aşağıdakı tədbirlərdən bəzilərini görməlidir:** | | | |
| • Media və özəl sektorun təşviqi<br>• Maarifləndirmə kampaniyaları<br>• Qeyri-zorakılıq və qadınlar və kişilər arasında bərabərlik mövzusunda təhsil<br>• Peşəkarların hazırlanması<br>• Gender stereotipləri ilə mübarizə | • Qurbanların və şahidlərin təhlükəsizliyinin və ehtiyaclarının ölkə tərəfindən qəbul edilən bütün müdafiə tədbirlərinin mərkəzində olmasını təmin etmək.<br>• Uşaq şahidlərin hüquq və ehtiyaclarına hörmətlə yanaşmaqla, qurbanların hüquqlarına, o cümlədən onların hüquqlarına dair məlumat, dəstək xidmətləri, regional və beynəlxalq şikayət mexanizmlərinə, sığınacaqlara, zorlama və ya cinsi zorakılıq qurbanları üçün mərkəzlərə, 24/7 pulsuz yardım xətlərinə təminat vermək. | • Hüquq-mühafizə və məhkəmə icraatına aşağı dakıların daxil olmasına təminat vermək: Təcavüzkarları çəkindirən sanksiyalar, səmərəli dövlət ittihamı, ağırlaş dırıcı halların nəzərə alınması, qadınlara qarşı zorakılığı cinayət kimi müəyyən edən qanunların mövcudluğu, səmərəli polis araşdırması<br>• Qurbanların hüquqlarını təmin etmək, o cümlədən: Uşaqqurban və şahidlərin müdafiəsi, qurbanı günahlandırmamaq, qurbanların şəxsi həyatının toxunulmazlığı hüququ və onların istintaq və məhkəmə araşdırmaları zamanı müdafiəsi | • Qurumlararası əməkdaşlıq<br>• Vətəndaş cəmiyyəti və QHT-lərə dəstək və onlarla işləmək<br>• Fəaliyyəti əlaqələndirmək və icraya nəzarət etmək<br>• İnsan hüquqlarına əsaslanan siyasətlər<br>• Siyasət və xidmətlərin maliyyələşdirilməsi<br>• Hərtərəfli qanunvericilik və gender aspektlərini nəzərə alan siyasətlər<br>• Tədqiqat aparılması və məlumat toplanması |

3. İstanbul Konvensiyasının 4 prinsipi üzrə tələblərin daha ətraflı siyahısı üçün bu broşuraya bax: www.coe.int/en/web/istanbul-convention/home

Buna görə də bu Tvinninq metodologiyası İstanbul Konvensiyasında təsbit edilmiş standartları təşviq etmək və həmkar təcrübəsi mübadiləsi vasitəsilə gender bərabərliyinin təşviq edilməsində və QQZ/MZ-nin aradan qaldırılmasında ölkələrə dəstək olmaq üçün davamlı bir vasitə kimi çıxış etmək məqsədi güdür.

## Tvinninq metodologiyası: məqsədlər

Bu yenilikçi Tvinninq Metodologiyası İstanbul Konvensiyasında təsbit edilmiş standartlara əsaslanan QQZ/MZ və gender bərabərliyi üzrə təcrübə icması yaratmaq və/və ya onu gücləndirmək məqsədi daşıyır ki, bu da həmkar təcrübəsi mübadiləsi aparan ölkələrdəki dövlət orqanlarını bu sahələrdə ortaq öyrənmə prosesində iştirak etməyə və öyrənilənləri öz müvafiq funksiyalarında və institusional sistemində tətbiq etməyə ruhlandıra və səfərbər edə bilər.

Bu səbəbdən də Tvinninq metodologiyasının üç məqsədi var:

- İstanbul Konvensiyasına və digər gender bərabərliyi standartlarına uyğun olaraq QQZ/MZ -nin qarşısının alınması və onunla mübarizə çərçivələrinin təkmilləşdirilməsinə yönəlmiş qadınlara qarşı zorakılıq və məişət zorakılığı və gender bərabərliyi sahəsində dövlət orqanları arasında həmkar təcrübəsi mübadiləsini necə inkişaf etdirmək barədə təlimat və vasitələr təmin etmək;
- Dövlət orqanlarının qadınlara qarşı zorakılıq, məişət zorakılığı ilə mübarizə və gender bərabərliyinin təminatı standartları, o cümlədən ölkələri necə əlaqələndirmək və onların xüsusi ehtiyaclarına uyğun yanaşmaları inkişaf etdirmək mövzusunda həmkar təcrübəsi mübadiləsini hazırlamaq, həyata keçirmək və qiymətləndirmək potensialını artırmaq;
- Qadınlara qarşı zorakılığın, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə və gender bərabərliyi standartlarının yaradılması üzrə qabaqcıl və perspektivli təcrübələr daxil olmaqla, həmkar təcrübələrindən öyrənilmiş bilik və təcrübənin nəticələrinin paylaşılmasını, yayılmasını və genişləndirilməsini dəstəkləmək. Bu, Tvinninq metodologiyasının əsas prinsiplərindən birinə, yəni İstanbul Konvensiyası və digər beynəlxalq gender bərabərliyi standartları ilə uyğunlaşdırmaq daxil olmaqla bu sahələrlə əlaqəli milli qanunvericiliyi və siyasəti təkmilləşdirmək prinsipinə uyğundur.

# TVİNNİNQ MODELİ: MƏRHƏLƏLƏR, ADDIMLAR VƏ MEXANİZMLƏR

Növbəti bölmələrdə təqdim olunan Tvinninq modeli Avropa Şurası layihələri çərçivəsində həyata keçirilən həmkar təcrübə mübadilələrinin yaxşı və ümidverici təcrübələrinə, eləcə də Avropa İttifaqının Qonşuluq Siyasəti və Genişləndirmə Danışıqları çərçivəsində hazırlanmış Aİ Tvinninq mexanizminə əsalanır. O, üç spesifik mərhələ üzrə davam edir. Hər bir mərhələ həyata keçirilməsi üçün xüsusi addımlar və təlimatları əhatə edir.

Qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi mövzusunda Tvinninq layihəsi tərtib edərkən üç vacib məqam nəzərə alınmalıdır:

- Onlar çevik olmalı və iştirakçı ölkələrin (tərəfdaşlar) ehtiyaclarına və prioritetlərinə uyğunlaşdırılmalıdır;
- Məqsədlər birgə müəyyən edildikdə, aydın şəkildə təsvir edildikdə və həmkarların iştirakı təmin edildikdə onların öyrənmək nəticələri daha təsirli olur; və
- Həmkar təcrübəsi mübadiləsi ilə öyrənmənin nəticələri, nəinki həmkarlar birgə planlaşdırılmış fəaliyyətləri həyata keçirdikdə, həm də öyrəndikləri və onların öz institusional sistemlərində mümkün tətbiqi haqqında birgə düşündükləri zaman maksimum dərəcədə artır.

Daha əvvəl təsvir olunan prinsiplərə uyğun olaraq, təklif olunan Tvinninq modeli Tvinninq layihəsinin necə tərtib oluna və həyata keçirilə biləcəyinə dair nümunə hesab edilməlidir. Kontekstin reallıqlarından və ümumiyyətlə, Tvinninq layihələrinə xas ortaq öhdəlik və məqsədlərin zəruriliyindən asılı olaraq həmkar təcrübəsi mübadiləsi ilə məşğul olan dövlət orqanları təklif olunan mərhələlərin, addımların və vasitələrin uyğunlaşdırılmasını nəzərdən keçirə bilər.

**Diaqram 1: QQZ/MZ və gender standartları üzrə Tvinninq: yol xəritəsi**




Yuxarıda Diaqram 1-də göstərildiyi kimi, təklif olunan Tvinninq modelinin üç mərhələsi həmkar təcrübəsindən öyrənməni addım-addım yol xəritəsində əks etdirməklə birləşdirilir. Bu addım-addım yol xəritəsi növbəti hissələrdə təsvir edilmişdir.

## Mərhələ 1: Tvinninq təcrübəsinin əhatə dairəsi, məqsədi və əlavə dəyərinin müəyyən edilməsi

### Addım 1: Nə üçün mənə QQZ/MZ və gender bərabərliyi üzrə Tvinninq lazımdır? Nəyə nail olmaq istərdim?

Bunlar Tvinninq prosesində vacib suallardır. Bu suallar, QQZ/MZ və gender bərabərliyi sahəsində həmkar təcrübəsi mübadiləsi imkanını nəzərdən keçirməyin səbəbini müəyyənləşdirməyə kömək edəcək. Oxşar qaydada, gözləntiləriniz və həmkar təcrübəsi mübadiləsinin işinizə töhfə verəcəyi əlavə dəyər haqqında düşünmək vacibdir. Aşağıdakı haşiyədə öz iştirakınız üçün nəzərə alınası bəzi təməl suallar verilmişdir. Onlar həmkar təcrübəsi mübadiləsində öhdəliyinizin mahiyyətini və əhatə dairəsini qiymətləndirməyinizə kömək etmək üçün hazırlanmışdır. Həmkar öhdəliyi Tvinninq təcrübələrinə yiyələnməkdə vacib elementdir və o, həmçinin həmkarlar arasında davamlı birgə fəaliyyətə kömək edə bilər.

**İstiqamətləndirici suallar:**

1. Nə üçün mənim şöbəmə/bölməmə Tvinninq layihəsi lazımdır?
2. QQZ/MZ və gender bərabərliyi, o cümlədən AŞ-nin İstanbul Konvensiyası üzrə Tvinninq layihəsində iştirak etməyimizin səbəbləri nə ola bilər?
3. Gender bərabərliyi və/və ya İstanbul Konvensiyası ilə bağlı mübadilənin bizim üçün əlavə dəyəri nə olardı?
4. QQZ/MZ və gender bərabərliyi ilə bağlı mandatımıza gəldikdə şöbəm/bölməm nəyə nail olmaq istərdi (məqsədimiz)?
5. Bu Tvinninq təcrübəsi vasitəsilə doldurmaq istədiyim bilik boşluqları hansılardır?
6. Mən və/yaxud şöbəm/bölməm nə ilə töhfə verə bilər?
7. Niyə, biz, bu spesifik Tvinninq layihəsində həmkarlarımızla əməkdaşlıq etmək istəyirik?
8. Gender bərabərliyi və/yaxud İstanbul Konvensiyasının standartlarının həyata keçirilməsi ilə bağlı bu Tvinninqdə digər həmkarlarla iştirakın əlavə dəyəri nə olacaq?
9. Həmkar təcrübəsi mübadiləsində iştirakımız üçün bəzi çətinliklər nələr ola bilər?
10. Birgə fəaliyyətin yaradılması üçün ölkəmdə gender bərabərliyi və/və ya QQZ/MZ və ya digər siyasət sahələrində hal-hazırda davam edən həmkar təcrübəsi mübadiləsi varmı?
11. Ölkəmdə QQZ/MZ və gender bərabərliyi üzrə bu Tvinninqdən faydalana biləcək həmkar təcrübəsi mübadiləsi üzrə şəbəkə varmı?

### Addım 2: Əsas dövlət orqanlarının və onların səlahiyyətlərinin müəyyənləşdirilməsi

Ölkənizdə müvafiq dövlət qurumlarının və onların səlahiyyətlərinin müəyyən edilməsi onların malik olduğu bilik boşluqlarının, ehtiyaclarının və prioritetlərinin təyin olunması baxımından vacibdir (Addım 3). İlk addım bu siyahıya daxil etməli olduğunuz parametrləri müəyyən etmək olacaq. Bəzi müvafiq parametrlər aşağıdakılardır:

- Səlahiyyət səviyyəsi: milli, regional, yerli;
- bir-biri ilə əlaqəli üç sahə (qadınlara qarşı zorakılıq, məişət zorakılığı, gender bərabərliyi) ilə bağlı səlahiyyət sahəsi;
- vəzifə: yüksək və ya orta rəhbərlik səviyyəsi; qurumda işlədiyi illər, qərar vermə səlahiyyətinin səviyyəsi (Tvinninqdan sonrakı əhatə dairəsinin genişlənməsi işi üçün vacibdir);
- bir dövlətdən birdən çox qurumun cəlb edilməsi və funksiyalarının müəyyən qədər oxşar olması halında, həmin qurumların müvafiq mandatları;

- qadınlara qarşı zorakılıqin, məişət zorakılığının qarşısının alınması və gender bərabərliyi, o cümlədən İstanbul Konvensiyası standartlarının təşviq edilməsi üzrə fəaliyyətlərin həyata keçirilməsinin icra vəziyyəti.

## Addım 3. Ehtiyacların qiymətləndirilməsi və bunu necə etməli – İstiqamətləndirici suallar

Müvafiq milli orqanlar müəyyən edildikdən sonra ölkənizdəki qurumların malik olduğu boşluqları, ehtiyacları və prioritetləri aşkar etməyiniz lazım gələ bilər.

Aşağıdakı anket sizə bu işdə kömək edəcək. Bu anket əldə edilmiş nəticələr və qarşıya çıxan çətinliklərdən əlavə, sizə dövlət orqanlarının qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə, gender bərabərliyinin təşviqi ilə bağlı qanunvericilik bazası və normativ çərçivələrin həyata keçirilməsində göstərdiyi səylərə ümumi baxışı təmin edəcəkdir. Eyni şəkildə, o, həmçinin həmkar təcrübəsi mübadiləsi ilə bağlı gözləntilər ilə daha yaxından tanış olmağınıza kömək edəcək.

Bu suallar ölkənizin hökumət orqanları ilə paylaşıla bilər. Əhatə dairəsinin bu şəkildə müəyyən olunmasının arxasında duran ideya ümumi ehtiyacları və çağırışları birlikdə aşkar etməkdən ibarətdir.

### Ehtiyacların qiymətləndirilməsi üçün şablon və istiqamətləndirici suallar

1. Ad: ......................................................................................................................................

2. Vəzifə: ...................................................................................................................................

3. Dövlətqurumu(nazirlik/komitə/agentlik,bölmə,digər): ...........................................................................

    1. Qadınlara qarşı zorakılığın, məişət zorakılığının (QQZ/MZ) qarşısının alınması və onunla mübarizə və gender bərabərliyi standartlarının təşviqi ilə bağlı hansı fəaliyyətləri həyata keçirə bilmisiniz (məsələn, maarifləndirmə tədbirləri, dövlət məmurlarının potensialının artırılması, qanunvericiliyin təhlili və s.)? Hansı konkret nəticələr əldə edilib?

    2. Bu fəaliyyətləri həyata keçirərkən qarşılaşdığınız əsas çətinliklər nələr idi?

    3. Qurum işçilərinin İstanbul Konvensiyası daxil olmaqla beynəlxalq standartlara uyğun olaraq QQZ/MZ-nin qarşısının alınması və onunla mübarizə və gender bərabərliyinin təşviqi ilə bağlı məlumatlılığının və potensialının artırılmasına kömək etmək üçün hazırda hansı növ resurslar (insan, maliyyə, texniki) mövcuddur?

    4. QQZ/MZ sahəsində həmkar təcrübəsi mübadiləsindən gözləntiləriniz nə olardı? Ondan nə əldə etmək istərdiniz (fərdi səviyyədə)? Qurumunuz bundan nə əldə edərdi (əlavə dəyər)?

    5. Qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi ilə bağlı ən çox hansı aspektləri bilmək istərdiniz?

    6. QQZ/MZ və gender bərabərliyi üzrə həmkar təcrübəsi mübadiləsində iştirak etməklə işinizin hansı konkret sahələrini təkmilləşdirməyi gözləyərdiniz (zəhmət olmasa, üçünü qeyd edin)?

## Addım 4: Potensial tərəfdaş ölkələrin seçilməsi üçün meyarların müəyyən edilməsi

Potensial tərəfdaş ölkələrin seçilməsi üçün meyarların müəyyən edilməsi həmkar təcrübəsi mübadiləsində mühüm addımdır, çünki o, QQZ/MZ və gender bərabərliyi ilə bağlı normativ çərçivələrin həyata keçirilməsinin gücləndirilməsi ilə bağlı birgə öyrənmə üçün daha möhkəm zəmin yaratmağa kömək edə bilər. Bu Tvinninq metodologiyasının tematik əhatə dairəsini nəzərə alaraq, aşağıdakı meyarlar toplusu sizə kömək edə bilər:

| | |
|---|---|
| 1. | İstanbul Konvensiyasını ratifikasiya etmiş ölkələr. |
| 2. | Qadına qarşı zorakılığın, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə və gender bərabərliyi sahəsində qabaqcıl və ya perspektivli təcrübələri təmin edə biləcək ölkələr. |
| 3. | Güclü qabaqlayıcı, müdafiə, təqib və əlaqələndirilmiş siyasət sistemləri olan ölkələr. |
| 4. | İstanbul Konvensiyası daxil olmaqla, QQZ/MZ-nin qarşısının alınması və onunla mübarizə üzrə AŞ və digər beynəlxalq standartlara uyğun olaraq milli qanunvericilik və siyasəti formalaşdırmaq və ya təkmilləşdirmək üçün dövlət orqanlarının potensialının artırılması sahəsində təcrübəsi olan ölkələr. |

Siz, həmçinin öz ölkənizdəidövlət orqanları ilə məsləhətləşə bilərsiniz. Bu halda ehtiyacların qiymətləndirilməsi formalarına aşağıdakı sualları əlavə edə bilərsiniz:

- Sizcə, hansı ölkələr həmkar mübadiləsinə daxil edilə bilər, məsələn, qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə və gender bərabərliyi standartlarının təşviqi sahəsində qabaqcıl və ya perspektivli təcrübələr təqdim edə biləcək ölkələr?
- Zəhmət olmasa, təşkilatınızın prioritetinə uyğun olaraq üç ölkənin adını çəkin: 1) yüksək prioritet; 2) orta prioritet; 3) aşağı prioritet. Sizin üçün niyə əlavə dəyər verəcəyini qısaca izah etdiyinizə görə təşəkkür edirik.

1) ..........................................................................................................................

2) ..........................................................................................................................

3) ..........................................................................................................................

Qeyd etmək vacibdir ki, ölkənizdəki digər dövlət qurumlarından soruşmaqla, lap başlanğıcdan Tvinninq prosesinə sahibliyi, məsuliyyəti təmin etmək yolunda addımlar atırsınız.

## Addım 5: Başqa ölkələrin kontekstini, siyasətini və normativ sistemini anlamaq

Uğurlu Tvinninq təcrübələrinin aparıcı amillərindən biri də mübadilədə iştirak edən digər həmkar qurumların kon-teksti, siyasəti və normativ sisteminin başa düşülməsidir. Həmkar ölkələrin siyasəti və normativ systemi haqqında ümumi anlayış digər ölkələrdə QQZ/MZ və gender bərabərliyi ilə bağlı arzuolunan nəticələrə doğru irəliləməyə imkan verən və ya mane olan faktorların və maraqlı tərəflərin nəzərə alınmasını ehtiva edir.

Siz həmkar ölkələrin konteksti, siyasəti və normativ mühiti ilə bağlı fikir mübadiləsi və təhlil aparmaq üçün qısa bir işçi sessiya planlaşdırmağı nəzərdən keçirə bilərsiniz. Bu spesifik addımda birgə təhlili və öyrənməni asanlaşdırmaq üçün bəzi müvafiq suallar aşağıdakılar ola bilər:

1. Digər ölkələrdə qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə milli hüquqi və siyasi çərçivə nədir?
2. O, İstanbul Konvensiyasına və digər beynəlxalq gender bərabərliyi standartlarına (məsələn, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya - CEDAW) nə dərəcədə uyğundur?
3. Tvinninq təcrübəsində nəzərə alınması tələb olunan çətinliklər və boşluqlar hansılardır?

### Addım 6: QQZ/MZ və gender bərabərliyi üzrə Tvinninq üçün mövzuların müəyyən edilməsi və qruplaşdırılması

Qruplaşdırma işi öz təşkilatınız, eləcə də ölkənizdəki digər müvafiq orqanlar üçün əhəmiyyət kəsb edən mövzuların seçilməsindən ibarətdir. Bu mövzular, ölkənizdəki digər orqanların ehtiyacların qiymətləndirilməsi sənədində ifadə etdiklərinə əsaslanaraq seçilə bilər (bax: Addım 3). Siz həmçinin öz ölkənizdəki həmkarlarınıza və ya digər qurumlara aşağıdakı sualı ehtiva edən birbaşa məktub göndərməyi nəzərdən keçirə bilərsiniz:

İstanbul Konvensiyasının xüsusi maddələri də daxil olmaqla QQZ/MZ və gender bərabərliyi ilə bağlı hansı spesifik mövzuların həmkar təcrübəsi mübadiləsinə daxil edilməsini istərdiniz? Zəhmət olmasa, onlardan üçünü prioritet sırasına görə qeyd edin: 1) çox əhəmiyyətli; 2) orta dərəcədə əhəmiyyətli; 3) daha az əhəmiyyətli:

1) ..............................................................................................................................

2) ..............................................................................................................................

3) ..............................................................................................................................

Aşağıdakı siyahı bu Tvinninq Metodologiyasının bir-biri ilə əlaqəli üç sahəsi üçün müvafiq ola biləcək potensial mövzuların nümunələrini göstərir: qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi. Bununla belə, onlar istiqamətləndirici hesab edilməlidir, çünki mövzuların seçimi ehtiyacların qiymətləndirilməsi zamanı sizin, ölkənizin səlahiyyətli orqanları və həmkarlarınız tərəfindən və müvafiq institusional şərtlərinizə, bilik və bacarıqlarınızdakı boşluqlara uyğun olaraq aparılmalıdır.

**1-ci mövzu:** Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə aparmaq üçün milli qanunlar, siyasət və proqramlar (və beynəlxalq standartlara uyğunlaşdırma).

**2-ci mövzu:** Zorakılıq qurbanları üçün dəstək zidmətləri (QQZ/MZ), o cümlədən zorakılıq qurbanı/zorakılıqdan sağ çıxan qadınlar üçün sığınacaqlar (mövcud şəbəkələrin təkmilləşdirilməsi və genişləndirilməsi üzrə tədbirlər).

**3-cü mövzu:** Məişət və cinsi zorakılıq halları üzrə şikayətlər, təhqiqatlar, cinayət təqibləri və məhkumluqlar üzrə məlumatların toplanması, təhlili və hesabatı üçün metodologiyalar (cins, yaş, şəhər və kənd yerləri üzrə bölünməklə, o cümlədən, cinayət törədənlər, yəni cinayətkarlar haqqında məlumatlar əsasında ayrı-ayrılıqda)

**4-cü mövzu:** Müdafiə və qabaqlayıcı tədbirlərin təkmilləşdirilməsi mexanizmləri (məsələn, qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısını almaq üçün zorakılıqla bağlı məlumatların çatdırılmasını sürətləndirən və asanlaşdıran milli yardım xətləri/qaynar xətlər, onlayn platformalar).

**5-ci mövzu:** Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə haqqında qanunların və əlaqədar gender bərabərliyi siyasətinin tətbiqinə nəzarət etmək üçün koordinasiya mexanizmləri.

Mövzuların yekun seçimində ölkənizdəki digər səlahiyyətli orqanların iştirak etməsi tövsiyə olunur. Qeyd etmək vacibdir ki, mövzuların həmkarlar tərəfindən seçilməsi Tvinninq prosesinə cavabdehliyi təmin edir və daha yaxşı təlim nəticələrinə, eyni zamanda həmkarlar arasında təcrübə mübadiləsindən sonra birgə öyrənilənlərin daha yüksək səviyyədə (ölkə səviyyəsində) yayılmasına səbəb ola bilər.

## Mərhələ 2: Tvinninq çərçivəsində həmkarların təcrübə mübadiləsinin dinamikası və formatı

Adətən müxtəlif ölkələrdəki həmkarlar arasında praktiki təcrübə mübadiləsi məhdud olur. Bu ehtiyacdan çıxış edərək, məqsədyönlü Tvinninq layihələri konkret məsələlərin həlli üçün təcrübə və metodologiyalara diqqət yetirməlidir. Onların seçilmiş sahələrdə müxtəlif səviyyəli praktiki biliklərdən istifadə etmələri gözlənilir. Məqsəd konkret məsələlərdə maraqlı tərəflərin praktiki imkanlarını artırmaqdır.

Hər bir Tvinninq layihəsi çərçivəsində ümumi prosesin əlaqələndirilməsi üçün yerli koordinator təyin edilməlidir. Görüşlərdən maksimum fayda əldə etmək üçün koordinatorlardan həm prosesə, həm də məzmuna diqqət yetirmək, görüşlər üçün strukturlaşdırılmış plan hazırlamaq, inklüziv dialoq yaratmaq və mümkün olduqda vizual və fiziki

materiallardan istifadə etmək tələb olunmalıdır. Fəal iştirakı sövq edən görüşlər cəlb edilmiş iştirakçılara müzakirələrə qatılmağa və həmkarlarından lazımi məlumatları toplamağa imkan verir

Lakin vəziyyət, məsələn, COVİD-19 pandemiyası zamanı səyahət etməyə imkan vermirsə, mübadilə proqramında ayrı-ayrı otaqlara yollanmağa imkan verilməsi kimi görüşün keçirilməsi üçün təkmil funksiyalara malik müxtəlif onlayn platformalardan istifadə edilə bilər.  Materiallar əvvəlcədən tanış olmaq üçün paylaşılmalı, görüşlərin prioritetləri müəyyənləşdirilməli və görüşlərin aydın gündəliyi təqdim edilməlidir. Təşkilatçılar həmkar görüşlərinin qısa olmasına, ideal olaraq hər seansın 45-60 dəqiqədən çox olmamasına diqqət etməlidir. Gündəlikdə müzakirə və sual-cavab sessiyalarına xeyli vaxt ayrılmalıdır. Materiallar mübadilədən 1-2 həftə əvvəl paylaşılmalıdır. Nəhayət, müzakirələrin ümumiləşdirilməsi ilə birgə iclasın xülasəsi nəticə olaraq iştirakçılarla paylaşılmalıdır.

## Addım 1: Bir-birini tanımaq, anlaşma üçün ümumi zəmin yaratmaq və ortaq məqsədləri və nəticələri müəyyən etmək

Tvinninq layihəsi başlamazdan əvvəl, təmsil olunan qurumların (təşəbbüskar ölkə və həmkar ölkə) hər birindən bir əlaqələndirici şəxsdən ibarət bir koordinasiya komandası ilkin iclasda Tvinninq layihəsindən faydalanacaq səlahiyyətli orqanlarla görüşməlidir. Koordinasiya komandasında iştirak etmək üçün əsas tələblər mövzu ilə bağlı müəyyən təcrübəyə malik və ideal olaraq kənardan olan, məsələn, Avropa Şurasının nümayəndəsi olan üzvlərin olmasıdır. Cəlb olunmuş dövlət orqanları öyrənmə prosesinə öz töhfələrini vermək üçün lazımı bacarıq və səriştəyə malik olmalıdırlar. Əsas məqsəd bir-birini daha yaxşı tanımaq, Tvinninq prosesinin mərhələlərini nəzərdən keçirmək və növbəti addımlar barədə razılığa gəlməkdir. Belə görüş bütün maraqlı tərəflər üçün faydalı ola bilər, çünki bu, bütün tərəflərin eyni mövqedə olmasına və Tvinninq layihəsinin sonuna qədər ümumi hədəflərin (məqsədlərin) və gözlənilən nəticələrin müəyyən edilməsinə kömək edəcəkdir. Bu hazırlıq görüşləri əməkdaşlıq həyata keçirildiyi zaman mövcud imkanlardan asılı olaraq onlayn və ya fiziki iştirakla həyata keçirilə bilər. Tvinninq öncəsi sorğular koordinasiya komandasının hazırlıq iclaslarında istifadə ediləcək.

**Diaqram 2: Tvinninq layihəsi üzrə koordinasiya komandasının yaradılması**



## Addım 2: Birgə iş planının və vaxt çərçivəsinin hazırlanması

*Tvinninq görüşlərinin planlaşdırılması, təşkili və monitorinqi üçün təlimatlar*

Həm benefisiar, həm də həmkar ölkədən iştirak edən hər bir qurumu təmsil edən əlaqələndiricilərdən ibarət Tvinninq koordinasiya komandası təfərrüatlı vaxt çərçivələrini və məsul iştirakçıları (iş planını) əhatə etməklə birgə fəaliyyət planı hazırlamalıdır. İş planında əsasən qısamüddətli mübadilə, təlim tədbirləri və maariflendirmə səfərləri nəzərdə tutulmalıdır. O, müntəzəm olaraq nəzərdən keçirilməli və zəruri hallarda düzəlişlər edilməlidir (düzəlişlərin tezliyi Tvinninq layihəsinin müddətindən asılı olacaq, məsələn, ayda bir dəfə). Bu sənəd Tvinninq layihəsi çərçivəsində həyata keçiriləcək fəaliyyətlərin planlaşdırılması, sessiyaların keçirilməsi, eləcə də görüşlərin və fəaliyyətlərin monitorinqinin ahəngini müəyyən etməlidir.

**Təcrübə vasitəsilə öyrənmək və təcrübə mübadiləsi**

Tvinninq təcrübələrinin əsas prinsipləri praktiki fəaliyyət prosesində öyrənmək (“etməklə öyrənmək”), qabaqcıl və perspektivli təcrübə və öyrənilmiş dərsləri paylaşmaqdır. Tvinninq layihəsində resursların mövcudluğundan və benefisiarların mənimsəmə potensialından asılı olaraq seminarlar, təlim məşğələləri, ekspert missiyaları, tanışlıq səfərləri, təcrübə keçmək imkanları və məsləhətləşmə daxil olmaqla bir sıra tədbirlər nəzərdə tutula bilər.

Əgər bu sessiyalar COVID-19 pandemiyası zamanı keçiriləcəksə, o zaman Tvinninq fəaliyyətlərinin virtual xarakteri səbəbindən daha çox interaktiv olmalıdır, çünki onlayn öyrənmə diqqətin cəmləşməsi və motivasiya aralığını qısaldır. Hər seansın müddəti 45 dəqiqədən çox olmamalı və qısa çay/qəhvə fasilələri daxil edilməlidir. Onlayn sessiyalarda istifadə olunan vasitələr fərqli ola bilər və motivasiyanı və diqqəti saxlamaq üçün aşağıdakıları ehtiva edə bilər, məsələn:

- qısa ppt təqdimatları;
- qısa ruhlandırıcı videolar;
- mini test və ya rəy sorğuları;
- sual-cavab çatfunksiyaları
- kollektiv biliklərin yaradılması üçün öyrənilən dərslər və qabaqcıl təcrübələr üzrə fərdi “təqdimatlar” (qısa təqdimatlar).

## Onlayn format

Fəaliyyətlərin üz-üzə, fiziki iştirakla aparılması mümkün olmadıqda müxtəlif videokonfrans platformalarından istifadə edilə bilər. Bu platformalar qruplara bölünmə sessiyaları kimi konkret fəaliyyətin tələbləri üçün lazımi funksionallığa malik olmalı, təqdimatların və videoların paylaşılmasına imkan verməlidir.

Kiçik qruplara bölünmə və plenar iclasların qarışığı ümumi anlaşmanın formalaşmasına və gələcəkdə həyata keçiriləcək birgə fəaliyyət növlərinin razılaşdırılmasına kömək edə bilər. Hər qrupdakı daxili aparıcı cəlb olunmuş dövlət orqanlarının fəal iştirakını təmin edə bilər. Hər bir qrupdan bir məruzəçinin seçilməsi tövsiyə olunur ki, o daha sonra qrup müzakirələrinin nəticələrini plenar iclasda təqdim etsin.

Videokonfrans platformalarının uyğunluğuna və konkret fəaliyyətə uyğunlaşdırılmış interaktiv onlayn imkanları təmin etmək üçün lazımi mexanizm və vasitələrlə təchiz olunmasına əmin olmaq üçün yoxlanmalı və hər bir fəaliyyətin əvvəlində bağlantının olmasını yoxlamaq üçün vaxt nəzərdə tutulmalıdır.

## Addım 3: Həmkarlar arasında qarşılıqlı fəaliyyəti necə saxlamalı

Tvinninq layihəsinin bütün müddəti ərzində həmkarları həvəsləndirmək və onların iştirakını davam etdirmək vacibdir. Bu, həmkarlar arasında ünsiyyəti asanlaşdırmaq, görüşlər və səfərlər, eləcə dədigər əlaqəli fəaliyyətlər üçün gündəmlərin asan qarşılıqlı əlaqəyə imkan verməsini təmin etməklə edilə bilər. Həmkarların ehtiyacları və istəkləri lazım gəldikdə yenidən nəzərdən keçirilməli və iştirakçıların mümkün qədər çox cəlb edilməsini təmin etmək üçün mütəmadi olaraq düzəlişlər edilməlidir.

Tədris vasitəsi üz-üzə deyil, onlayn olduqda benefisiarların diqqətini öyrənmə prosesində saxlamaq daha çətin olur. Bu səbəbdən, Tvinninq koordinasiya komandası iştirakçıların hədsiz yüklənmiş və uzun sessiyalarla sıxılmamasını, görüşlər arasında fasilə olmasını təmin etməlidir ki, onlar paylaşılanları mənimsəyə və öyrəndikləri üzərində düşünə

bilsinlər. Bu həmkar iclasları arasında koordinasiya komandası öyrənilənləri və benefisiarların öyrəndiklərini gündəlik işlərində necə həyata keçirməyi planlaşdırdıqlarını müzakirə etmək üçün görüşlər təşkil edə bilər.

Həmkarlar arasında etimadın yaradılması digər mühüm elementdir, çünki bu, həmkarlar arasında qarşılıqlı əlaqənin davamlı olmasına kömək edir. Həmkarlar arasında etibar və inam yaratmaq üçün istifadə ediləcək bəzi vasitələr aşağıdakılar ola bilər:

- həmkar ehtiyaclarının birgə onlayn qaydada qiymətləndirilməsi;
- ümumi maraq kəsb etdiyi əvvəlcədən müəyyən edilərək seçilmiş mövzunun həmkarlar tərəfindən birgə təhlili;
- seçilmiş əsas mövzular üzrə həmkar təcrübəsi mübadiləsi əsasında əldə edilmiş biliklər;
- təlim sessiyaları, məşğələlər və ya seminarlar (onlayn və fiziki iştirakla);
- onlayn şəbəkələşmə (konkret vəziyyət əsasında).

**İstiqamətləndirici suallar**

Tvinninq koordinatoru (məsələn, Avropa Şurası) təlim prosesini istiqamətləndirmək və iştirakçıları daim prosesə cəlb etmək üçün sualların qısa siyahısını hazırlamalıdır. Suallara bəzi nümunələrə aşağıdakılar daxildir:

1. Bu gün öyrəndiyiniz ən vacib məlumat nədir?
2. Bu gün komandanızla nə dərəcədə yaxşı ünsiyyət qurdunuz?
3. Bu proses zamanı digər həmkarlarınıza necə kömək etdiniz?
4. Öyrəndiyinizə əsaslanaraq, eyni problemə yenidən yanaşsanız, nəyi fərqli edərdiniz?
5. Gender bərabərliyi və/və ya QQZ/MZ ilə bağlı gələcək təşəbbüslər və layihələrdə komanda yoldaşlarınızı necə daha yaxşı dəstəkləyə və həvəsləndirə bilərsiniz?

### Addım 4: Görüşlər üçün format və iş metodları (təqdimatlar, anketlər, onlayn paralel qruplar, hesabat formaları və s.)

Həm benefisiar, həm də Tvinninqdə iştirak edən ölkə nümayəndələrinin etdiyi bütün təqdimatların qısa olması və sessiyaları mümkün qədər cəlbedici saxlaması tələb edilməlidir. İştirakçıların sayı çox olarsa, bu, üz-üzə/onlayn tapşırıq qrupları vasitəsilə edilə bilər. Əks halda, bütün qrup sessiyalar zamanı interaktiv müzakirələrdə iştirak edə bilər. İştirakçıların nə öyrəndiklərini, sessiyada nələri bəyəndiklərini, növbəti sessiyaların necə təkmilləşdirilməsini istədiklərini bilmək üçün koordinasiya komandası sessiyalardan dərhal sonra qısa sorğular təqdim etməlidir (bax: Əlavə 2). Sorğu cavabları təşəbbüskar ölkə nümayəndələrinin koordinasiya komandası tərəfindən növbəti sessiyaları iştirakçıların təlim ehtiyaclarına uyğunlaşdırılmasına kömək etmək üçün istifadə edilməlidir.

## Mərhələ 3: Təlim nəticələrinin təsirinin qiymətləndirilməsi və irəliyə doğru addımlar

Təsir birbaşa proqramın nəticələrindən irəli gələn uzunmüddətli dəyişiklikdir. Onu ölçmək adətən çətin olur, xüsusilə qısa müddətli olduqda; lakin potensial təsirləri qiymətləndirmək üçün səylər göstərilə bilər. Bunu etməklə, biz, cari strategiyaların ümumi məqsədə töhfə verib-vermədiyini anlaya bilərik. Biz, həmçinin, Tvinninq layihələrinin səmərəliliyini, yəni layihənin məqsədlərinə çatmaqda uğur dərəcəsini qiymətləndirə bilərik.

### Addım 1: Fəaliyyətlərin və ümumilikdə Tvinninq layihəsinin təsirini necə qiymətləndirməli

Koordinasiya komandası Tvinninqdə iştirak edən ölkələrdən dəstək tədbirlərindən dərhal əvvəl Tvinninq öncəsi fəaliyyət sorğularını doldurmağı tələb etməlidir (bax: Əlavə 1). Bu cavablar koordinasiya komandasına həmkarlarının başlanğıcda hansı bilik və bacarıqlara malik olduğunu və daha çox nəyi öyrənməkdə maraqlı olduqlarını öyrənməyə imkan verir. Cavablar həmçinin ümumiləşdirilməli və həmkar ölkələrin nümayəndələri ilə paylaşılmalıdır ki, onlar da öz materiallarını və mövzularını benefisiar ölkələrin ehtiyaclarına uyğunlaşdıra bilsinlər.

Sessiyaların sonunda iştirakçılar Tvinninq sonrası fəaliyyət sorğularını təqdim etməlidir (Əlavə 2). Cavablar koordinasiya komandasına iştirakçıların nəyi öyrəndiklərini, nəyi ən çox və ən az faydalı hesab etdiklərini və ən əsası, bu yeni bilik və bacarıqlar toplusunu gündəlik işlərində necə istifadə etməyi planlaşdırdıqlarını anlamağa imkan verəcək.

Tvinninq layihəsinin sonunda iştirakçılardan həmçinin koordinasiya komandasının fəaliyyətini, ümumilikdə Tvinninq layihəsini, təşkilati məsələləri, təlim prosesini və s.-ni qiymətləndirmək xahiş edilə bilər.

## Addım 2: Mən öz şöbəm/bölməm/müəssisə/nazirlik daxilində nəyi irəli aparıram və niyə?

*Öyrənilənlərin həyata keçirilməsi üçün strategiyanın qurulması üzrə istiqamətləndirici suallar*

Tvinninq layihəsi zamanı öyrənilənləri (nəticələr) praktikada tətbiq etmək üçün strategiyaya malik olmağın əsas məqsədi Tvinninqdən sonra iştirakçı qurumlar tərəfindən həyata keçiriləcək tədbirlərə istiqamət vermək, eləcə də əldə edilmiş bilik və bacarıqlardan istifadə etməkdir.

Tvinninq layihəsinin sonunda həmkar təcrübəsi mübadiləsində iştirak edən qurumlardan və nazirliklərdən prosesdə öyrəndiklərini, öz proqramlarını təkmilləşdirməyə necə kömək edəcəklərini və Tvinninq layihəsindən öz müvafiq qurumlarında və/və ya təşkilatlararası fəaliyyət üçün konkret olaraq necə istifadə etməyi planlaşdırdıqlarını təqdim etmələri xahiş olunmalıdır. Yaxşı təcrübə bunun strategiyanın hazırlanması ilə edilməsi olardı.

Strategiya hazırlamağınız üçün bəzi istiqamətləndirici suallar aşağıdakıları əhatə edə bilər:

*Seçilmiş mövzu(lar)da hansı bilik və bacarıqları əldə etdiniz?*

**Mövzu 1: Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə milli qanunlar, siyasətlər və proqramlar (və beynəlxalq standartlara uyğunlaşdırma).**

**Bilik/bacarıqlara nümunə:** beynəlxalq standartları daha yaxşı bilmək; milli qanun, siyasət və ya proqramlarda çatışmayan sahələrin müəyyən edilməsi; genderə həssas məsələləri nəzərə alan siyasətləri daha yaxşı başa düşmək.

**Mövzu 2: Zorakılıq (QQZ/MZ) qurbanları üçün dəstək xidmətləri, o cümlədən zorakılığın qurbanı olan qadınlar üçün sığınacaqlar (mövcud şəbəkələrin təkmilləşdirilməsi və genişləndirilməsi tədbirləri).**

**Bilik/bacarıqlara nümunələr:** gender məsələləri nəzərə alınmaqla qurbanlar üzərində mərkəzləşmiş xidmətlər üçün İstanbul Konvensiyasının tələblərinin daha yaxşı başa düşülməsi; müxtəlif qurumlar arasında əməkdaşlığın gücləndirilə biləcəyi sahələr və hansı yolla bu edilə bilər; vətəndaş cəmiyyəti ilə əməkdaşlıq vasitələri.

**Mövzu 3: Məişət və cinsi zəmində zorakılıq halları (cins, yaş, şəhər və kənd yerləri üzrə ayırmaqla cinayət törədənlər, yəni digərləri ilə birgə cinayətkarlar haqqında məlumatlar ayrı-ayrılıqda) barədə şikayətlər, istintaqlar, cinayət təqibləri və ittihamlar haqqında məlumatların toplanması, təhlili və hesabatı üzrə metodologiyalar.**

**Bilik/bacarıqlara nümunələr:** İstanbul Konvensiyasının tələblərinin daha yaxşı başa düşülməsi; cinslər üzrə bölünmə, məlumat kateqoriyaları və metodologiyalar; müxtəlif qurumlar arasında əməkdaşlığı və məlumatların uyğunlaşdırılmasını necə genişləndirməli.

**Mövzu 4: Müdafiə və qabaqlayıcı tədbirlərin təkmilləşdirilməsi mexanizmləri (məsələn, qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısını almaq üçün zorakılıq halları haqqında məlumatın çatdırılmasını sürətləndirən və asanlaşdıran milli yardım xəttləri/qaynar xəttlər, onlayn platformalar).**

**Bilik/bacarıqlara nümunələr:** QQZ/MZ-nin qarşısını almaq və QQZ/MZ-nə sıfır dözümlülüyü təşviq etmək üçün ölkədə hansı qabaqlayıcı vasitələrdən istifadə edilə bilər; məlumatlılığın artırılması üçün vətəndaş cəmiyyəti ilə əməkdaşlıq.

**Mövzu 5: Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin və əlaqəli gender bərabərliyi siyasətlərinin icrasına nəzarət etmək üçün koordinasiya mexanizmləri.**

**Bilik/bacarıqlara nümunələr:** müxtəlif qurumlar arasında əməkdaşlığın gücləndirilə biləcəyi sahələr və bunun necə edilməsi; milli əlaqələndirici orqanın öz mandatını necə daha yaxşı yerinə yetirməsi və/və ya belə bir qurum mövcud deyilsə, milli əlaqələndirici orqanın necə yaradılması.

*Bu bilikdən necə istifadə etməyi planlaşdırırsınız?*

Nümunələr: hüquqi baza və ya siyasətə yenidən baxılması, təlim təşəbbüsləri, müvafiq maraqlı tərəflərlə dəyirmi masalar və s.

*Anketlər doldurulduqda qeyd olunan arzu etdiyiniz məqsədləri həyata keçirmək üçün hansı addımları atmalı olacaqsınız (addım 1)?*

**Nümunələr:** şöbənizdə/bölmənizdə və müvafiq qurumlar arasında əldə edilmiş bilikləri yaymaq planları, müəyyən edilmiş qanunvericilik/siyasət dəyişikliklərini həyata keçirmək üçün maraqlı tərəfləri cəlb etmək planları və s.

Həyata keçirmə strategiyasının hazırlanması Tvinninq təcrübələrindən öyrənilmiş dərsləri tətbiq etmək və Tvinninqdə iştirak etməzdən əvvəl arzu olunan dəyişikliyi təşviq etməkdən ötrü qurumlar arasında səyləri əlaqələndirmək baxımından çox faydalı ola bilər.

# NƏTİCƏ

Bu sənəddə təklif olunan Tvinninq metodologiyası məişət zorakılığı daxil olmaqla, qadınlara qarşı zorakılığın bütün formalarına son qoymaq kimi təxirəsalınmaz ehtiyaclara daha yaxşı cavab verməkdən ötrü hökumət orqanları və onların tərəfdaşlarının səylərini dəstəkləmək məqsədi daşıyır. Qadınlara qarşı zorakılığın geniş yayılması ilə bu, gender bərabərliyinə cavabdeh olan dövlətlər və qurumlar üçün yüksək prioritetə çevrilib. Tvinninq Metodologiyası Avropa Şurasının İstanbul Konvensiyasının müddəalarını həyata keçirmək üçün bir vasitə kimi işlənib hazırlanmışdır, çünki konvensiya qadınlara qarşı zorakılığa son qoyulması və gender bərabərliyinin təşviqi üçün dayanıqlı və əhatəli çərçivə təklif edir.

Bu Tvinninq Metodologiyasının üç mərhələsi (yəni: *Əhatə dairəsi, məqsəd və əlavə dəyərin müəyyən edilməsi; Tvinninq layihəsi üzrə tərəfdaş təcrübəsi mübadiləsinin dinamikası və formatı; və Təsirin qiymətləndirilməsi və irəliyə doğru addımlar*) qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində işlərini gücləndirmək və bu sahədə mövcud olan əsas standartlara, xüsusən də İstanbul Konvensiyasına əsaslanaraq, ümumi işlərində gender bərabərliyini təşviq etmək üçün dövlət orqanları və onların tərəfdaşları üçün faydalı alət kimi çıxış edə bilər.

# QADINLARA QARŞI ZORAKILIQ, MƏİŞƏT ZORAKILIĞI İLƏ MÜBARİZƏ VƏ GENDER BƏRABƏRLİYİ SAHƏSİNDƏ EDİLƏN HƏMKAR MÜBADİLƏLƏRİ ÜZRƏ QABAQCIL VƏ PERSPEKTİVLİ TƏCRÜBƏLƏR

## Gürcüstan

| | |
|---|---|
| Adı | Gürcüstanda qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə |
| Fəaliyyət növü | Tərəfdaş ölkələrə tanışlıq səfərləri və hüquqşünaslar üçün işçi görüş (yerli həmkar təcrübəsi mübadiləsi toplantısı) |
| Təsviri | Aşağıda qeyd olunan mübadilə imkanları Avropa Şurasının "Gürcüstanda qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" layihəsinin tərkib hissəsi olub. Layihə 2018-2019-cu illər arasında həyata keçirilib. O, qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizədə iştirak edən əsas maraqlı tərəflərin potensialının gücləndirilməsinə yönəlib.<br><br>Layihə bir neçə həmkar təcrübəsi mübadiləsini əhatə edirdi:<br><br>**İspaniyaya tanışlıq səfəri:** 6-7 iyun 2018-ci ildə Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin İnsan Hüquqları İdarəsinin 9 nəfər (5 qadın və 4 kişi) prokuror və əməkdaşlarından ibarət qrup İspaniyada qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə həmkar təcrübəsi mübadiləsi səfərində iştirak etmişdir. Səfərin qiymətləndirmə formalarının təhlili göstərdi ki, bütün iştirakçılar bu təcrübəni cari və gələcək işləri üçün çox faydalı hesab edirlər. Bütün iştirakçılar öz işlərində tətbiq edə biləcəkləri yeni anlayışlar və praktiki ideyaları öyrəndiklərini bildirdilər.<br><br>**İsveçə tanışlıq səfəri:** 18-19 iyun 2019-cu ildə prokurorlar, müfəttişlər, hakimlər və digər dövlət məmurlarından ibarət 10 nəfərlik qrup (9 qadın, 1 kişi) aşağıdakılar barədə öyrənmək üçün İsveçdə həmkar təcrübəsi mübadiləsi səfərində iştirak etmişdir:<br>– Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə üzrə İsveç qanunvericiliyi, siyasət və proqramları;<br>– cinayətlərin səmərəli istintaqı və təqibi;<br>– məlumatların toplanması və təhlili sistemləri;<br>– zorakılıq qurbanlarına dəstək xidmətləri; və<br>– Qadınlara Qarşı Zorakılığa və Məişət Zorakılığına Qarşı Fəaliyyət üzrə Ekspertlər Qrupu (GREVIO) tərəfindən İstanbul Konvensiyasının monitorinqi prosesi üzrə İsveç təcrübəsi.<br><br>**Yerli həmkar təcrübəsi mübadiləsi:** 30 noyabr 2018-ci il tarixində İstanbul Konvensiyasına uyğun olaraq ədalət mühakiməsi sistemində qadınlara qarşı zorakılıq və məişət zorakılığı hallarına qarşı mübarizə sahəsində əməkdaşlığın təşviqi məqsədilə 20 hüquqşünas (vəkil, prokuror, hakim və s. – 14 qadın və 6 kişi) üçün işçi görüş təşkil edilmişdir. Görüş Gürcüstanda təşkil edilən ilk belə görüş idi və iştirakçılar onu olduqca faydalı hesab etdilər. Görüşün qiymətləndirilməsi ilə bağlı rəylərə əsasən, bütün iştirakçılar oxşar görüşlərin gələcəkdə də təşkil olunmasını arzulayırdılar və qurumlararası əməkdaşlığı gücləndirmək üçün hüquqşünaslar arasında əməkdaşlığın artırılmasına daha çox vaxt ayrılmalı olduğunu qeyd edirdilər. Müzakirələr zamanı müəyyən edilmiş boşluqlar 2019-cu ildə Avropa Şurasının layihəsi çərçivəsində oxşar seminar-görüşlərin planlaşdırılmasına istiqamət vermişdir. |

| | |
|---|---|
| Məqsədlər | 1. QQZ/MZ-nin qarşısını almaq və onunla mübarizə aparmaq üzrə İsveç qanunvericiliyi, siyasət və proqramları haqqında öyrənmək; QQZ/MZ cinayətlərinin səmərəli istintaqı və təqibi; QQZ/MZ sahələrində məlumatların toplanması və təhlili sistemi; zorakılıq qurbanlarına dəstək xidmətləri; GREVIO monitorinq prosesi üzrə İsveç təcrübəsi;<br>2. Yuxarıda qeyd olunan mövzular üzrə İsveç və Gürcüstan hökumət orqanları arasında həmkarların təcrübəsi və perspektivli təcrübə mübadiləsini asanlaşdırmaq;<br>3. Potensial gələcək əməkdaşlıq halında İsveçin səlahiyyətli orqanları ilə əlaqələrin qurulmasını asanlaşdırmaq. |
| Benefisiar qurumlar | • Gürcüstanın Baş Prokurorluğu<br>• Gürcüstan Dövlət Müdafiəçisinin Ofisi<br>• Gürcüstan Ali Məhkəməsi<br>Layihə əlavə olaraq qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində fəaliyyət göstərən müxtəlif dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq və donor təşkilatları ilə əməkdaşlıq edib. |
| Əldə edilən nəticələr | İki tanışlıq səfərindən toplanan rəylərə əsasən, rəy bildirən iştirakçıların 88%-i bacarıq və biliklərini artırdığını və əldə etdikləri biliklərdən öz işlərində istifadə edəcəklərini bildiriblər.<br>Həm səfərlər, həm də hüquqşünaslar ilə işçi görüş ilə əlaqədar olaraq, ümumilikdə 49 əsas hüquq-mühafizə orqanı əməkdaşı və hüquqşünas potensialın gücləndirilməsi üzrə təlimlərdə və həmkarlar arası təcrübə mübadilələrində iştirak etmişlər ki, bu da onların İstanbul Konvensiyası və qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması haqqında biliklərini artırmışdır. |
| Vaxt çərçivəsi | İyun - noyabr 2019-cu il |
| Layihəyə keçid | https://www.coe.int/en/web/genderequality/preventing-and-combating-violence-against-women-in-georgia<br>https://www.coe.int/en/web/tbilisi/-/georgian-authorities-visited-spain-to-exchange-views-on-combating-violence-against-women |

## Xorvatiya

| | |
|---|---|
| Adı | Xorvatiyada gender bərabərliyinə dəstək |
| Təsviri | Bu layihənin əsas məqsədi Xorvatiya Respublikasının Gender Bərabərliyi üzrə Hökumət İdarəsi və Finlandiya Respublikasının Milli Sağlamlıq və Rifah İnstitutu arasında bilik və qabaqcıl təcrübə mübadiləsi aparmaq idi. Bu Tvinninq layihəsi milli və beynəlxalq gender bərabərliyi prinsiplərinin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün dövlət orqanlarının institusional potensialının artırılmasına, habelə Xorvatiya Respublikasının vətəndaşlarını gender əsaslı ayrı-seçkilikdən qorumaq imkanlarına dair ictimaiyyətin məlumatlılığının və inamın artırılmasına yönəlmişdir.<br>Bundan əlavə, layihə Xorvatiya məhkəmə sisteminin gender əsaslı ayrı-seçkiliklə mübarizədə səmərəliliyinin və Məhkəmə Akademiyası ilə əməkdaşlığın gücləndirilməsi məqsədi daşıyır. Məqsəd bütün səviyyələrdə gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması və siyasətlərin gender məsələlərini nəzərə almasında irəliləyişi təmin etmək idi. |

| | |
|---|---|
| Məqsədlər | Bu layihənin gözlənilən nəticələri aşağakılar idi:<br>• İctimai kampaniyalar və medianın fəal iştirakı vasitəsilə gender bərabərliyi və insan hüquqlarının müdafiəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması;<br>• Gender məsələlərini nəzərə alan dövlət idarəçiliyinin yaradılması;<br>• Milli institusional mexanizm üzvlərinin öz təsisatları daxilində fəallıq səviyyəsinin və məlumatlılığının artırılması;<br>• Gender bərabərliyi üzrə milli institusional mexanizm və digər müvafiq maraqlı tərəflərin əməkdaşlığının gücləndirilməsi;<br>• Gender bərabərliyi üzrə qanunvericiliyin tətbiqi və səmərəliliyi sahəsində ədliyyə orqanlarının peşəkar imkanlarının, səriştəlilik və biliklərinin artırılması. |
| Benefisiar qurumlar | Gender Bərabərliyi üzrə Hökumət İdarəsindən, Gender Bərabərliyi üzrə Ombudsmandan, Parlamentin Gender Bərabərliyi Komitəsindən, dövlət idarəetmə orqanlarında və idarələrində, habelə yerli gender bərabərliyi komitələrində (bələdiyyə/şəhər və dairə) gender bərabərliyi üzrə koordinatorlardan ibarət Xorvatiyanın gender bərabərliyi üzrə milli institusional mexanizmi. |
| Əldə edilən nəticələr | Qarşıya qoyulmuş məqsədlərə uyğun olaraq layihə aşağıdakı nəticələrə nail olmuşdur:<br>• Gender bərabərliyinin təminatı üzrə institusional mexanizmlər və gender əsaslı ayrı- seçkiliklə mübarizə sahəsində məhkəmə sisteminin səmərəliliyi gücləndirilmişdir;<br>• Gender bərabərliyi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasına radio stansiyalarında audio kliplərin, ictimai nəqliyyatda və biznes binalarında 1500 plakatın yayılması, ictimai şəxslərin cəlb olunduğu küçə aksiyaları və medianın fəal rolunu əhatə edən ictimai kampaniya vasitəsilə nail olunub.<br>• Dövlət idarəçiliyində gender aspektlərinin nəzərə alınmasına aşağıdakı fəaliyyətlər vasitəsilə nail olunub: dövlət və yerli orqanların işində 200-dən çox nümayəndə üçün gender perspektivi ilə bağlı potensialın gücləndirilməsi, təlim vəsaitindən istifadə edilməsi və dövlət idarəçiliyi səviyyəsində yaxşı təcrübələrin mübadiləsi və ötürülməsi üçün Finlandiyaya tanışlıq səfəri. |
| Vaxt çərçivəsi | 05/2016-07/2017 |
| Layihəyə keçid | https://bim.lbg.ac.at/en/project/completed-projects-projects-womens-rights-projects-eunip-projects-twinning-eunip-projects-croatia-projects-antidiscrimination/croatia-support-gender-equality-twinning |
| Əldə edilmiş nəticələrə keçid | https://www.safu.hr/en/news/twinning-project-final-event-support-to-the-gender-equality |

## Rusiya Federasiyası

| | |
|---|---|
| Adı | 2017-2022-ci illər üçün Rusiya Federasiyasının Qadınlara dair Milli Fəaliyyət Strategiyasının həyata keçirilməsi üzrə əməkdaşlıq |
| Təsviri | 2019-2020-ci illərdə həyata keçirilən "2017-2022-ci illər üçün Rusiya Federasiyasının Qadınlara dair Milli Fəaliyyət Strategiyasının həyata keçirilməsi üzrə əməkdaşlıq" layihəsi çərçivəsində İsveçə tanışlıq səfəri həyata keçirilib.<br>Tanışlıq səfərində ümumilikdə 19 nəfər iştirak etmişdir. Tərkibə müvafiq nazirliklərin, sığınacaqların və vətəndaş cəmiyyətinin nümayəndələri daxil idi. |
| Məqsədlər | 1. Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və mübarizə üzrə İsveç qanunvericiliyi, siyasəti, proqramları və zorakılıq qurbanlarına dəstək xidmətləri haqqında öyrənmək;<br>2. Yuxarıda qeyd olunan mövzular üzrə İsveç və Rusiya hökumət orqanları arasında həmkar təcrübəsi və perspektivli təcrübə mübadiləsini asanlaşdırmaq. |
| Benefisiar qurumlar | Rusiya Federasiyasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rusiya Federasiyasında İnsan Hüquqları üzrə Ali Komissarlıq və Xarici İşlər Nazirliyi. |
| Əldə edilən nəticələr | Qiymətləndirmə sorğularından əldə edilən məlumatlara əsasən, iştirakçılar tanışlıq səfərlərini faydalı hesab etmişlər. İştirakçıların 89%-i yeni biliklər əldə etdiyini, 100%-i isə yeni biliklərdən işində istifadə edəcəyini bildirib. |
| Vaxt çərçivəsi | 25–28 noyabr 2019-cu il |
| Layihəyə keçid | https://www.coe.int/en/web/moscow/-/project-launch-co-operation-on-the-implementation-of-the-russian-federation-national-action-strategy-for-women-2017-2022- |

# ƏLAVƏ MƏNBƏLƏR VƏ FAYDALI KEÇİDLƏR


Advocates for International Development (A4ID) and Role UK (undated), "Judicial peer-to-peer learning to strengthen the rule of law: a guide," available at: Judicial Peer-To-Peer Learning To Strengthen The Rule Of Law: A Guide | ROLE UK, accessed 30 April 2021.

Asian Development Bank (2019), *Azerbaijan Gender Assessment report*

Azərbaycan Dövlət Statistika Komitəsi (2009), *"Şəxs əleyhinə zorakılığa dair" statistik yoxlamanın yekunları,* Bakı. https://www.stat.gov.az/news/?id=641?lang=en.

Committee on the Elimination of Discrimination against Women – CEDAW (2015), F*rom the reports submitted by state parties under Article 18 of the Convention. Fifth Periodic Report of State Parties: Azerbaijan.* CEDAW/C/AZE/5. New York.

Committee on the Elimination of Discrimination against Women (CEDAW). 2015. *Concluding Observations on the 5th Periodic Report of Azerbaijan*. CEDAW/C/AZE/5. Geneva.

Council of Europe (2016), *Barriers, Remedies and Good Practices for Women's Access to Justice in Azerbaijan*

Council of Europe (2011), "Council of Europe Convention on preventing and combating violence against women and domestic violence," available at: www.coe.int/en/web/istanbul-convention/home, accessed August 4, 2021

Council of Europe, Gender equality strategy 2018-2023," available at: www.coe.int/en/web/genderequality/gender-equality-strategy, accessed August 4, 2021

Council of Europe "The four pillars of the Istanbul Convention on preventing and combating violence against women and domestic violence," available at: www.coe.int/en/web/istanbul-convention/home, accessed August 4, 2021

Csalagovits, Z. and Duban, E. (2019), "Guide for developing a mentoring programme on women's access to justice for legal professionals" Council of Europe publishing, Strasbourg

European Commission (n.d.): EU *Twinning website*, available at: https://ec.europa.eu/neighbourhood-enlargement/tenders/twinning_en, accessed August 4, 2021

Azərbaycan Respublikası. 2018. "Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumunun iştirakçılarına müraciəti." 30 may. Bakı Konqres Mərkəzi, bax: https://en.trend.az/azerbaijan/politics/2910316.html

Republic of Azerbaijan, State Committee for Family, Women and Children Affairs. 2019. C*EDAW: Sixth Periodic Report of States Parties*. Baku.

http://scfwca.gov.az/en - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin veb-saytı

YUVA Humanitar Mərkəzi (2019), *Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanununda boşluqların təhlili və tövsiyələr*

United Nations Committee on the Rights of Persons with Disabilities. 2014. Convention on the Rights of Persons with Disabilities. *Concluding Observations on the Initial Report of Azerbaijan*. Geneva.

UNFPA (2020) *Rapid gender assessment of the impact of COVİD-19 on the lives of women and men in Azerbaijan*, Baku

UN Women (2010), *Global Database on Violence Against Women*. http://evaw-global-database.unwomen.org/en/countries/asia/azerbaijan (accessed 15 October 2019).

Women's Association for Rational Development – WARD (2017), *Violence Scale: Femicide in Azerbaijan*, Baku

World Health Organisation - WHO (2009), "Promoting gender equality to prevent violence against women," available at: www.who.int/violence_injury_prevention /violence/gender.pdf, accessed August 4, 2021

# ƏLAVƏLƏR

I Tvinninq layihəsi çərçivəsində təlim öncəsi sorğu

II Tvinninq layihəsi çərçivəsində təlim sonrası sorğu

III Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı vəziyyət haqqında hesabat

## ƏLAVƏ I

# QADINLARA QARŞI ZORAKILIQ, MƏİŞƏT ZORAKILIĞI VƏ GENDER BƏRABƏRLİYİ STANDARTLARI ÜZRƏ TVİNNİNQ LAYİHƏSİ: TƏLİM ÖNCƏSİ SORĞU

---

Hörmətli Xanım/Cənab,

[ tarixdə] siz [adı] layihəsi çərçivəsində təşkil edilən Tvinninq fəaliyyətində iştirak edəcəksiniz. Sorğunun əsas məqsədi QQZ/MZ üzrə Tvinninq Metodologiyasının və əlaqədar gender bərabərliyi standartlarının təkmilləşdirilməsinə dair rəy və təkliflərinizi toplamaqdır.

Sizdən bu təlim öncəsi sorğunu doldurmağınızı xahiş edirik, o, bizə bu tədbirdə iştirak etməyin faydalılığı, öyrənmə təcrübəsindən gözləntilər, eləcə də bu tədbirdən sonra nəzərdə tutduğunuz hər hansı nəticə ilə bağlı fikirlərinizi müəyyən etməyə kömək edəcək. Sorğu anonimdir. Məlumatlar qiymətləndirmə məqsədləri üçün yalnız koordinasiya komandası tərəfindən təhlil olunacaq.

Bizə dəyərli rəy bildirmək üçün 10 dəqiqə vaxtınızı ayırdığınız üçün əvvəlcədən təşəkkür edirik.

**Cinsiniz:**

a) *Qadın*

b) *Kişi*

c) *Digər*

**Yaş qrupunuz**

a) *<30*

b) *30-40*

c) *41-50*

d) *50<*

**Müəssisənizdə/təşkilatınızda iş təcrübəniz**

__________*il*

1. **İstanbul Konvensiyası daxil olmaqla qadınlara qarşı zorakılıq, məişət zorakılığı və** gender bərabərliyi üzrə digər standartlarla bağlı **təlimlərdə nə vaxtsa iştirak etmisinizmi?**

   a) *bəli*

   b) *xeyr*

**1.a. cavab bəlidirsə, ən son təlimin adını, əsas mövzu(ları) və təşkilatçını qeyd edin (əgər çoxdursa, 2-sini qeyd edin)**

______________________________________________________________________

______________________________________________________________________

**2. Sizcə, qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı məlumatlılığın artırılması üçün ən yaxşı vasitə nədir?**

_______________________________________________________________________________

_______________________________________________________________________________

**3. Gender bərabərsizliyinin, qadınlara qarşı zorakılığın və məişət zorakılığının kökündə dayanan amillər və struktur səbəbləri haqqında biliklərinizi necə qiymətləndirərdiniz?**

□ *1 qiymətləndirə bilmirəm*

□ *2 zəif bilik*

□ *3 orta bilik*

□ *4 orta səviyyədən yuxarı bilik*

□ *5 yüksək səviyyəli bilik*

**4. İstanbul Konvensiyası ilə bağlı biliklərinizi necə qiymətləndirərdiniz? (müvafiq xananı işarələyin)**

□ *1 qiymətləndirə bilmirəm*

□ *2 zəif bilik*

□ *3 orta bilik*

□ *4 orta səviyyədən yuxarı bilik*

□ *5 yüksək səviyyəli bilik*

**5. Digər beynəlxalq gender bərabərliyi standartları üzrə biliklərinizi necə qiymətləndirərdiniz?**

□ *1 qiymətləndirə bilmirəm*

□ *2 zəif bilik*

□ *3 orta bilik*

□ *4 orta səviyyədən yuxarı bilik*

□ *5 yüksək səviyyəli bilik*

**6. Zorakılıq, xüsusilə də məişət zorakılığı törədənlərin cinayət təqibinin təmin edilməsi mexanizmləri haqqında biliklərinizi necə qiymətləndirərdiniz?**

□ *1 qiymətləndirə bilmirəm*

□ *2 zəif bilik*

□ *3 orta bilik*

□ *4 orta səviyyədən yuxarı bilik*

□ *5 yüksək səviyyəli bilik*

**7. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizədə öz qurumunuzun/təşkilatınızın rolu nə dərəcədə vacibdir?**

□ *1 Heç vacib deyil*

□ *2 Bir az vacibdir*

□ *3 Orta dərəcədə vacibdir*

□ *4 Çox vacibdir*

□ *5 Həddən çox vacibdir*

**8. Siz, şəxsən bu Tvinninq üzrə əsas mövzular, yəni QQZ/MZ və İstanbul Konvensiyası da daxil olmaqla Avropa və ya beynəlxalq gender bərabərliyi standartları haqqında ətraflı öyrənməklə maraqlanırsınızmı?**

□ *1 maraqlanmıram*

□ *2 bir az maraqlanıram*

□ *3 orta dərəcədə maraqlanıram*

□ *4 çox maraqlanıram*

□ *5 həddən çox maraqlanıram*

**8.a. Əgər cavab bəlidirsə, xüsusilə hansı mövzularla maraqlanırsınız?**

___________________________________________________________________________

___________________________________________________________________________

**9. Qarşıdan gələn Tvinninq fəaliyyətindən gözləntiləriniz nədir (məsələn, təlim seminarı, tanışlıq səfəri, məşğələ)?**

___________________________________________________________________________

___________________________________________________________________________

**10. Fəaliyyəti necə davam etdirmək və əldə etdiyiniz bilik və bacarıqları gündəlik işinizdə necə tətbiq etmək niyyətindəsiniz? (Lütfən, həyata keçirməyi düşünə biləcəyiniz üç konkret hərəkəti və ya fəaliyyəti sadalayın)**

*1.*___________________________________________________________________________

*2.*___________________________________________________________________________

*3.* ___________________________________________________________________________

## ƏLAVƏ II

# QADINLARA QARŞI ZORAKILIQ, MƏİŞƏT ZORAKILIĞI VƏ GENDER BƏRABƏRLİYİ STANDARTLARI ÜZRƏ TVİNNİNQ LAYİHƏSİ: TƏLİM SONRASI SORĞU

---

Hörmətli Xanım/Cənab,

[tarixdə] siz [adı] layihəsi çərçivəsində təşkil edilən Tvinninq fəaliyyətində iştirak etmisiniz. Sorğunun əsas məqsədi Tvinninq Metodologiyasının təkmilləşdirilməsinə dair rəy və təkliflərinizi toplamaqdır.

Sizdən bu təlim sonrası sorğunu doldurmağınızı xahiş etmək istərdik O, bizə bu tədbirdə iştirak etdikdən sonra onun faydalılığı, iştirak etməklə öyrənmə təcrübəsindən gözləntilər, eləcə də bu tədbirdən sonra nəzərdə tutduğunuz hər hansı nəticə ilə bağlı fikirlərinizi müəyyən etməyə kömək edəcək. Sorğu anonimdir. Məlumatlar qiymətləndirmə məqsədləri üçün yalnız koordinasiya komandası tərəfindən təhlil olunacaq.

Bizə dəyərli rəy bildirmək üçün 20 dəqiqə vaxtınızı ayırdığınız üçün əvvəlcədən təşəkkür edirik.

**Cinsiniz:**

d) *Qadın*

e) *Kişi*

f) *Digər*

**Yaş qrupunuz:**

e) *<30*

f) *30-40*

g) *41-50*

h) *50<*

**Müəssisənizdə/təşkilatınızda iş təcrübəniz**

__________ *il*

1. **İstanbul Konvensiyası ilə bağlı bilikləriniz artıbmı? (müvafiq xananı işarələyin)**

   □ *1 eyni səviyyədə qalıb*

   □ *2 bir az artıb*

   □ *3 xeyli artıb*

2. **Gender bərabərliyi üzrə digər beynəlxalq standartlar haqqında bilikləriniz artıbmı?**

   □ *1 eyni səviyyədə qalıb*

   □ *2 bir az artıb*

   □ *3 xeyli artıb*

3. **Siz zorakılıq qurbanlarına, xüsusən də məişət zorakılığı qurbanlarına zərərin ödənilməsi mexanizmlərini necə təmin etmək, zorakılıq törədənlərin təqibini təmin etmək və zorakılığın qarşısını almaq barədə biliklərinizi necə qiymətləndirərdiniz**

◻ *1 qiymətləndirə bilmirəm*

◻ *2 zəif bilik*

◻ *3 orta bilik*

◻ *4 orta səviyyədən yuxarı bilik*

◻ *5 yüksək səviyyəli bilik*

4. **Gender bərabərsizliyinin, qadınlara qarşı zorakılığın və məişət zorakılığının kökündə dayanan amillər və struktur səbəbləri haqqında bilikləriniz artıbmı?**

◻ *1 eyni səviyyədə qalıb*

◻ *2 bir az artıb*

◻ *3 xeyli artıb*

5. **Proqramdan, məzmundan və seminardan əldə etdiyiniz biliklərdən nə dərəcədə razısınız?**

◻ *1 Çox narazıyam*

◻ *2 Orta dərəcədə narazıyam*

◻ *3 Nə razı, nə də narazıyam*

◻ *4 Orta dərəcədə razıyam*

◻ *5 Çox razıyam*

5.a**. Zəhmət olmazsa, seçiminizi izah edin.**

____________________________________________________________________________

____________________________________________________________________________

6. **Hansı sessiyalarda/fəaliyyətlərdə iştirak etmisiniz? (tarixi, sessiyanın nömrəsini və adını göstərin)**

____________________________________________________________________________

____________________________________________________________________________

7. **Bu sessiyadan/fəaliyyətdən nə dərəcədə razısınız?**

◻ *1 Çox narazıyam*

◻ *2 Orta dərəcədə narazıyam*

◻ *3 Nə razı, nə də narazıyam*

◻ *4 Orta dərəcədə razıyam*

◻ *5 Çox razıyam*

7.a. **Zəhmət olmazsa, seçiminizi izah edin.**

________________________________________________________________________________

________________________________________________________________________________

8. **Fəaliyyət/tədbir İstanbul Konvensiyası daxil olmaqla QQZ, MZ və gender bərabərliyi ilə bağlı beynəlxalq çərçivələr haqqında biliklərinizin artırılmasına nə dərəcədə töhfə verdi?**

□ *1 heç bir*

□ *2 bir az*

□ *3 orta*

□ *4 xeyli*

□ *5 tam*

9. **Fəaliyyət İstanbul Konvensiyası daxil olmaqla, QQZ, MZ və gender bərabərliyi ilə bağlı Avropa çərçivələrini tətbiq etmək və həyata keçirmək yolları üzrə bacarıqlarınızın artırılmasına nə dərəcədə kömək etdi?**

□ *1 heç bir*

□ *2 bir az*

□ *3 orta*

□ *4 xeyli*

□ *5 tam*

10. **Fəaliyyət gözləntilərinizə nə dərəcədə cavab verdi?**

□ *1 Çox narazıyam*

□ *2 Orta dərəcədə narazıyam*

□ *3 Nə razı, nə də narazıyam*

□ *4 orta dərəcədə razıyam*

□ *5 Çox razıyam*

11.a. **Zəhmət olmazsa, seçiminizi izah edin.**

________________________________________________________________________________

________________________________________________________________________________

11. **Fəaliyyətin/tədbirin hansı elementlərini işiniz üçün ən faydalı hesab etdiniz?**

________________________________________________________________________________

________________________________________________________________________________

________________________________________________________________________________

12. **Qazandığınız bilik və bacarıqları gündəlik işinizdə necə tətbiq etmək niyyətindəsiniz?**

____________________________________________________________________________

____________________________________________________________________________

13. **Fəaliyyətə/tədbirə daxil olan mövzular haqqında daha çox öyrənməklə şəxsən maraqlanırsınızmı?**

◻ *1 maraqlanmıram*

◻ *2 bir az maraqlanıram*

◻ *3 orta dərəcədə maraqlanıram*

◻ *4 çox maraqlanıram*

◻ *5 həddən çox maraqlanıram*

14. **İştirak etdiyiniz fəaliyyətlərə/sessiyalara hansı təkmilləşdirmələri edərdiniz?**

____________________________________________________________________________

____________________________________________________________________________

# ƏLAVƏ III

# AZƏRBAYCANDA QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏIŞƏT ZORAKILIĞI İLƏ BAĞLI VƏZİYYƏT HAQQINDA HESABAT[4]

## Müvafiq qurumlar və onların səlahiyyətləri

### Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Azərbaycan hökuməti 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsini yaratdı. Komitənin mandatına gender aspektlərinin qanunvericilikdə, dövlət siyasəti, dövlət proqram və layihələrində əhatə edilməsi daxil idi. O, həmçinin bir çox digər funksiyaları ilə yanaşı cinsi mənsubiyyətə görə ayırmaqla statistik məlumatların tərtib edilməsinə və hesabatına start verdi. Komitə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ilə əvəz edilmişdir. AQUPDK-a ailə, qadın və uşaq problemləri üzrə dövlət siyasətinin həyata keçirilməsini və tənzimlənməsini nəzərdə tutan daha əhatəli mandat verilmişdir.

Azərbaycanın gender bərabərliyi üzrə dövlət strukturuna Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 sentyabr 2000-ci il tarixli 176 nömrəli Qərarı əsasında hər bir nazirlik və dövlət qurumuna gender məsələləri üzrə şəxslərin təyin edilməsi də daxildir.

Komitənin 76 əməkdaşı və əməliyyat büdcəsi var. Quruma aşağıdakıları həyata keçirmək səlahiyyəti verilib:[5]

- hüquqi aktlar təklif etmək;
- dövlət siyasəti və proqramlarına yenidən baxmaq və tövsiyə vermək,
- gender məsələləri ilə bağlı monitorinq üçün informasiya sistemlərinin işlənib hazırlanması və
- xarici dövlətlərin müvafiq orqanları və beynəlxalq təşkilatlarla müqavilələr bağlamaq.

Komitə öz funksiyalarını aşağıdakı mexanizmlərdən istifadə etməklə həyata keçirir:

- qadınlar və uşaqlar üçün xidmətlər haqqında məlumat verən, gender və ailə problemləri ilə bağlı maarifləndirməni təmin edən ailəyə dəstək mərkəzləri fəaliyyət göstərir;
- gender bərabərliyi məsələləri üzrə dövlət xidməti daxilində müvafiq mütəxəssisləri hazırlayır;
- genderlə bağlı məsələlər üzrə tədqiqat aparır və ya bu barədə tapşırıq verir;
- zəruri məlumatların və cinslər üzrə ayrılmış statistik məlumatların toplanmasına nəzarət edir;
- xüsusi fəaliyyət sektorlarında müxtəlif gender bərabərliyi məsələlərinə dair dəyirmi masalar, seminarlar və konfranslar təşkil edir;
- digər nazirliklərin nəzdində fəaliyyət göstərən müxtəlif sahələr üzrə komitələrdə iştirak edir;
- ailə, uşaqlar, qadınlara qarşı zorakılıq, məşğulluq və sosial inteqrasiya ilə bağlı siyasətlərin formalaşdırılması və həyata keçirilməsində gender baxışını təmin edir; və
- qadınlar, uşaqlar və ailələrlə bağlı siyasətin formalaşdırılması və qərarların qəbulu prosesinə töhfə vermək üçün müvafiq vətəndaş cəmiyyəti təşkilatları ilə qarşılıqlı fəaliyyət göstərir.

AQUPDK gender bərabərliyinə nail olunmasının təmin edilməsində əsas qurumdur. Gender bərabərliyi məsələləri ilə bağlı səlahiyyətə malik olan digər bir qurum İnsan Hüquqları üzrə Müvəkkildir (və ya Ombudsman). Hüquqlarının pozulması ilə qarşılaşan qadınlar bu barədə şikayətlə Ombudsmana müraciət edə bilərlər. Ölkədə insan hüquqları ilə bağlı müddəaların icrasına nəzarəti həyata keçirən Ombudsman fiziki və hüquqi şəxslər tərəfindən insan hüquqlarının pozulması ilə bağlı şikayətləri qəbul edib araşdıra bilər.

4. Bu hesabat Azərbaycanda pilot Tvinninq layihəsinin işlənib ərsəyə gətirilməsi üçün hazırlanmış və bu metodologiyanın yekunlaşdırılması üçün istifadə edilmişdir.
5. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında əlavə məlumat üçün onun internet saytına daxil olun: http://scfwca.gov.az/en

## Müvafiq tənzimləyici, siyasət və qanunvericilik bazalarına ümumi baxış

2011-ci ilin dekabrında qəbul edilmiş Azərbaycan Respublikasında İnsan Hüquqları üzrə Milli Fəaliyyət Planı qadınların hüquqlarını aşağıdakılar vasitəsilə müdafiə edir:

- insan hüquqlarına dair müddəaları təkmilləşdirmək üçün qanunvericiliyin nəzərdən keçirilməsi;
- qadın hüquqlarının digər insan hüquqları ilə bərabər səviyyədə tutulması;
- bu hüquqların qorunmasına yönəlmiş tədbirlərin müəyyən edilməsi;
- insan hüquqları və əsas azadlıqlar üzrə beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsini tələb etmək;
- qadınlara qarşı zorakılığın bütün formalarına, o cümlədən məişət zorakılığına qarşı mübarizənin təşviq edilməsi; və
- genişmiqyaslı, maarifləndirici proqramların təşkilini tövsiyə etmək.

Asiya İnkişaf Bankı tərəfindən aparılmış Azərbaycanda Gender Qiymətləndirilməsi üzrə son hesabata (2019) əsasən, AQUPDK qadınlara qarşı zorakılığın miqyası və mürəkkəbliyi ilə məşğul olmaq üçün kifayət qədər resurslara malik deyil. Onun büdcəsi sığınacaqları maliyyələşdirmək üçün yetərli deyil və onun fəaliyyəti əsasən zorakılıq qurbanlarına faktiki xidmətlər göstərməkdənsə, maarifləndirmə ilə məhdudlaşır. Qadınlar çox zaman yardım almaq üçün qeyri-hökumət təşkilatlarına (QHT) yönləndirilir, lakin QHT-lər bu xidmətləri göstərmək üçün dövlət vəsaiti almırlar.

Cinsi zorakılığa qarşı mübarizədə AQUPDK-nı dəstəkləyən, inkişaf üzrə tərəfdaşlara BMT-nin Əhali Fondu və məcburi köçkün icmaları üzrə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) daxildir. Yuxarıda qeyd olunan hesabata görə, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun həyata keçirilməsi üzrə milli fəaliyyət planı və "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında" Avropa Şurası Konvensiyasının (İstanbul Konvensiyası) ratifikasiyası bu istiqamətdə ciddi addımlar ola bilər və CEDAW Komitəsinin tövsiyələrinə də uyğundur.

Məişət zorakılığını əhatə edən sonuncu hərtərəfli araşdırma 2009-cu ildə aparılıb və məişət zorakılığı halları ilə bağlı bu günü əks etdirən məlumatlar məhduddur. Dövlət Statistika Komitəsinin "Şəxslərə qarşı zorakılıq" araşdırması (2009-cu il) ölkə üzrə 18 000 ailə təsərrüfatını təsadüfi seçmə ilə əhatə edən zorakılıq təcrübələri haqqında idi. Bu araşdırma aşkar etdi ki, bütün respondentlərin 18,3%-i həyatında zorakılıqla üzləşdiyini bildirib. Zorakılıq təcrübələrini bildirənlərin əksəriyyəti qadın respondentlər olub, kişilərin yalnız 0,5%-i zorakılığa məruz qaldığını bildirib.

Azərbaycan 2009-cu ilin yanvarında Əlillərin Hüquqları haqqında Konvensiyanı və onun Fakultativ Protokolunu ratifikasiya edib. Ölkə bu öhdəlikləri yerinə yetirmək üçün əlillərin avadanlıq, xidmətlər və mənzil proqramlarından istifadə imkanının genişləndirilməsi də daxil olmaqla tədbirlər görür. Əlilliyi olan yetkinlik yaşına çatmış şəxslərin və uşaqların müəssisələrdən ailə mühitinə dönməsi və inklüziv təhsilin təşviqi üçün də tədbirlər həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də Konvensiyanın müddəalarının həyata keçirilməsi üçün QHT nümayəndələri ilə işçi qrupu toplayıb.[6]

Bununla belə, ölkənin konvensiyanın tələblərinə cavab verməsi üçün əlavə tədbirlərə ehtiyac vardır, o cümlədən (i) əlilliyin insan hüquqlarına əsaslanan modelinin qəbul edilməsi, (ii) dövlət sənədlərində əlilliyi olan şəxslərə aşağılayıcı müraciətlərin aradan qaldırılması və (iii) əlilliyə görə ayrı-seçkiliyi qadağan edən qanunların həyata keçirilməsi. Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun qəbul edilməsi kimi gender bərabərliyinin təşviq edilməsi üzrə tədbirləri təsdiq etməklə yanaşı, Birləşmiş Millətlər Təşkilatının Əlillərin Hüquqları Komitəsi belə tədbirlərin əlilliyi olan qadınlarla bağlı problemləri konkret həll etməməsindən narahatlığını bildirir və qeyd edir ki, " Komitə iştirakçı dövlətləri gender məsələləri ilə bağlı qanunvericiliyi və siyasətində əlillik məsələlərini nəzərə almağa, o cümlədən qadınlara qarşı zorakılıqla mübarizə və cinsi və reproduktiv sağlamlıqla bağlı məlumat və xidmətlərə səmərəli çıxışın təmin edilməsi; əlilliyi olan qadınlar və qızlar tərəfindən və onların adından müdafiəni asanlaşdırmaq ilə əlaqəli ikitərəfli yanaşma tətbiq etməyə sövq edir."

## Gender bərabərliyinə dair milli qanunvericilik, siyasət, institutlar və beynəlxalq öhdəliklər

Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il) cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi qadağan edir və ərlə arvadın hüquqlarının bərabər olduğunu bildirir. Azərbaycan gender bərabərliyinə dair beynəlxalq konvensiyaları imzalamış və 2006-cı ildə gender bərabərliyinin hüquqi əsasını qoyan "Qadın və kişilərin bərabər hüquqlarının dövlət

6. Azərbaycanın ilkin hesabatı üzrə yekun müşahidələr (BMT-nin Əlillərin Hüquqları Komitəsi, 2014)

təminatı haqqında" Qanunu qəbul etmişdir. Gender bərabərliyi məqsədləri son milli inkişaf siyasətlərində və iqtisadi strategiyalarda ifadə edilmişdir. Gender bərabərliyi üzrə milli orqan – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi – gender aspektlərinin dövlət siyasəti, proqramları və qanunlarına daxil edilməsində və genderlə bağlı monitorinq üçün informasiya sistemlərinin işlənib hazırlanmasında fəaldır. Ölkənin gender bərabərliyi üzrə dövlət strukturuna hər bir nazirliyə və dövlət qurumuna təyin edilmiş gender məsələləri ilə məşğul olan şəxslər də daxildir.

Hökumət genderlə bağlı problemlərin həlli məqsədilə gender aspektlərini daha çox nəzərə alan mexanizm yaratmaq üçün səylər nümayiş etdirib, o cümlədən (i) məişət zorakılığına qarşı mübarizədə səmərəli reaksiya mexanizmi yaratmaq üçün dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında görüşlər keçirmək, (ii) Gender Əsaslı Zorakılıqla Mübarizə üzrə Qurumlararası Əlaqələndirmə Şurasının yaradılması üçün təkliflər hazırlamaq və (iii) hakimlər və vəkillər üçün müvafiq təlimlərin keçirilməsi. Bununla belə, gender bərabərliyi və qadınların hüquq və imkanlarının artırılması üçün dönüş yaradan dəyişikliklərin həyata keçirilməsi üzrə ümumi baxış, əsas məsələləri, prioritet tədbirləri və fəaliyyət planını müəyyən etmək məqsədilə gender siyasətinin və genderlə bağlı fəaliyyət planlarının daha yaxşı ifadə edilməsinə ehtiyac var.

2018-ci ilin oktyabr ayından bəri məişət zorakılığı ilə bağlı internet məlumat səhifəsi mövcuddur. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, 11 regional uşaq və ailələrə dəstək mərkəzi və səkkiz qadın resurs mərkəzi fəaliyyət göstərir. Bununla belə, dəstək sistemləri daha da gücləndirilməlidir, çünki bir çox hallar barədə əsasən sosial stiqma və zorakılıqdan sağ çıxan qadınları günahlandırmaq praktikası səbəbindən məlumat verilmir.

Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipi digər qanunvericilik sənədlərində, o cümlədən Cinayət Məcəlləsində və Əmək Məcəlləsində öz əksini tapmışdır. 2010-cu ildə Azərbaycanda məişət zorakılığının qarşısının alınması haqqında qanun qüvvəyə minmişdir və bu qanun məişətdə fiziki, psixoloji və cinsi zorakılıqla mübarizəyə yönəlib. O, törədilmiş məişət zorakılığının qarşısını almaq və cinayət təqibi üçün hüquqi baza yaradır. O, həmçinin sağ qalanlar üçün mənfi hüquqi, tibbi və sosial nəticələrə toxunur. Bundan əlavə, zorakılığdan zərər çəkmiş qadınlara hüquqi və sosial yardımın göstərilməsi ilə bağlı müddəaları ehtiva edir. 2011-ci ildə hökumət Ailə Məcəlləsinə dəyişiklik edərək həm qadınlar, həm də kişilər üçün qanuni nikah yaşını 18 yaş olaraq müəyyən etdi. O, həmçinin erkən və ya məcburi nikahı qadağan etmək üçün cinayət məcəlləsinə dəyişiklik etdi (Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW), 2015). 2018-ci ilin mayında Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan qadınlarına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumunun iştirakçılarına müraciətində dövlətin qadınlar üçün bərabər hüquq və imkanların təmin edilməsinə sadiqliyini vurğulamışdı.[7]

## Gender bərabərliyində irəliləyişlər

Azərbaycan hökuməti gender bərabərliyinin milli siyasət və proqramlara inteqrasiyası istiqamətində addımlar atmışdır. Nəzərəçarpan nailiyyətlər aşağıdakılardır (CEDAW, 2019):

- İnsan Alverinə Qarşı Mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planının uyğunlaşdırılması yolu ilə insan, xüsusilə qadın və uşaq alverinin qarşısının alınması üzrə tədbirlər gücləndirilmişdir;
- Yanlış gender stereotiplərinin aradan qaldırılması üçün tədbirlər həyata keçirilmişdir - kənd və şəhər yerlərində ölkə miqyasında media kampaniyaları aparmaqla. Kampaniyalar erkən və məcburi nikahların, insan alverinin qarşısının alınması kimi mövzularda video çarxlar və qısametrajlı filmlərdən istifadə etməklə məktəblərdə və kütləvi informasiya vasitələri vasitəsilə həyata keçirilib;
- Məcburi köçkün qadınlar və uşaqlar üçün sosial və iqtisadi şəraitin yaxşılaşdırılmasını təmin etmək üçün siyasət və dövlət proqramları həyata keçirilmişdir;
- Gender bərabərliyi tədbirlərinin əsas siyasətlərə inteqrasiyası təmin edildi, o cümlədən 2008–2015-ci illərdə Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramının həyata keçirilməsi; 2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı; və Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı;
- Mentorluq proqramları və maarifləndirmə tədbirləri kimi qadınların siyasətdə iştirakını təşviq etmək üçün müxtəlif layihələr həyata keçirmişdir; və
- Məişət zorakılığı ilə mübarizə üzrə Azərbaycan Respublikasının Milli Strategiyasını hazırlayıb həyata keçirmişdir.

---

7. Azərbaycan Respublikası. 2018. "Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumunun iştirakçılarına müraciəti." 30 may. Bakı Konqres Mərkəzi. https://en.trend.az/azerbaijan/politics/2910316.html

## Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması

Azərbaycan 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edib ki, bu qanun qadınların əri və ya yaxın münasibətdə olduğu digər şəxslər tərəfindən zorakılığa məruz qaldıqda ədalət mühakiməsinə müraciət etmələrini nəzərdə tutur. Bununla belə, qadınlar zorakılıqdan azad yaşamaq hüquqlarını həyata keçirmək üçün bir sıra mədəni, sosial və iqtisadi maneələrlə üzləşirlər, özlərini və uşaqlarını bu cür vəziyyətlərdən çıxarmaq üçün addımlar atırlar.

Qadınlara Qarşı Zorakılıq üzrə Qlobal Məlumat Bazasının ölkə hesabatına əsasən, 15-49 yaş arası Azərbaycan qadınlarının təxminən 14%-i həyatlarında ən azı bir dəfə yaxın adamları tərəfindən zorakılığa (fiziki və/yaxud cinsi) məruz qalırlar (BMT Qadınlar, 2010). 2017-ci ilin məlumatları göstərir ki, 1031 məişət zorakılığı hadisəsinin 807-si (78%) barədə qadınlar və 224-ü (22%) barədə kişilər məlumat vermişdi.

2016-cı ildə ümumilikdə 110 qadın qətlə yetirilib, onlardan 48-i ərləri, 35-i isə ata, qardaş, oğul və ya digər yaxın qohum kimi kişi qohumları tərəfindən qətlə yetirilib. Beləliklə, 2016-cı ildə qadınların "məişət zorakılığı" nəticəsində qətlə yetirilməsi bütün qadın qətllərinin 75%-ni təşkil edib. 2016-cı ildə qadınların həyatına 97 sui-qəsdin 56-sı əri və ya keçmiş əri, 28-i isə yaxın kişi qohumları tərəfindən törədilib. (WARD, 2017).

Azərbaycanda intiharların da sayı artır - 2016-cı ildə 121 qadın intihar edib, 69 qadın intihara cəhd edib ki, bu da 2010-cu ildəki müvafiq 89 və 37 göstəricisindən xeyli çoxdur. Bir çox intihar və intihara cəhd hallarının davamlı olaraq zorakılığa məruz qalmaq nəticəsində baş verdiyinə dair sübutlar vardır.[8]

Hökumət və digər tədqiqatçılar məişət zorakılığının səbəblərini və təsirlərini daha yaxşı başa düşmək üçün hərtərəfli tədqiqatlar aparıblar. Bununla belə, məişət zorakılığının miqyasını ölçmək çətindir, çünki zorakılıq qurbanları və ya şahidləri bu barədə heç də həmişə məlumat vermir.

AQUPDK "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tətbiqini gücləndirmək siyasəti aparır. O, həmçinin QQZ üzrə statistik məlumatların toplanması və monitorinqinin təkmilləşdirilməsini təmin etmək üçün onlayn məlumat bazasının işlənib hazırlandığını elan edib.

## Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun tətbiqini gücləndirmək üçün AQUPDK-nın həyata keçirdiyi cari siyasət

- Regionların müvafiq dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, icra hakimiyyəti orqanlarının və ictimai təşkilatların, Gender Zorakılığı və Uşaqlara Qarşı Zorakılıq üzrə Monitorinq Qruplarının nümayəndələri üçün Azərbaycan Respublikasının Dövlət İdarəçilik Akademiyasında təlim kurslarının keçirilməsi.
- Zərərli ideoloji inancların aradan qaldırılmasında, gender stereotipləri ilə mübarizədə və ailələrə psixoloji və sosial dəstəyin göstərilməsi üzrə xidmətlərin təşviqində dövlət orqanlarının və vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi.
- Bu problemləri həll etmək üçün psixoloqların maarifləndirilməsini gücləndirmək və məişət zorakılığından zərər çəkmiş ailələrə göstərilən xidmətlərin səviyyəsini artırmaq üçün ailə psixologiyası qurumunun yaradılması.
- Məişət zorakılığı haqqında məlumatların tezliyini və keyfiyyətini yaxşılaşdırmaq üçün teleradio yayım şirkətləri və çap mediası işçiləri üçün müntəzəm təlimlərin keçirilməsi.

2019-cu ildə Azərbaycanda qadınlara və qızlara qarşı tez-tez ölümlə nəticələnən zorakılıq halları fonunda yerli QHT olan YUVA Humanitar Mərkəzi mövcud qanunun problemlərini, boşluqlarını və çətinliklərini müəyyən etmək, gender əsaslı zorakılığn həlli ilə bağlı problemləri öyrənmək və bu məsələlərin həlli ilə əlaqəli konkret tövsiyələr vermək üçün "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna (2019) yenidən baxılmasına təşəbbüs göstərmişdir.

Qanuna əsasən məişət zorakılığı ilə bağlı şikayətlərə baxan iki dövlət orqanı var.

- belə şikayətlərdə törədilmiş və ya qəsdən törədilmiş cinayətlər barədə məlumatlar olduğu təqdirdə cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada cinayət təqibini həyata keçirən orqanlar.
- belə şikayətlərdə cinayət tərkibi olmadıqda yerli icra hakimiyyəti orqanları.

8. *yenə orada*

Cinayət məcəlləsində məişət zorakılığı zəminində törədilmiş və ya qəsdən törədilmiş cinayətlərə dair konkret müddəa yoxdur. Cinayət Məcəlləsi bir sıra ümumi müddəaları, o cümlədən məişət zəminində cinayətə görə cəzanı açıq şəkildə müəyyən edir, maddələr: 120, 122, 125, 126, 127, 128, 129, 131, 133, 134, 145, 149, 150, 151, 152, 153 (şəxsiyyət əleyhinə cinayətlər) və s.

Əvvəllər cinayət əməli sayılmayan məişət zorakılığı hallarının qarşısının alınması məqsədilə İnzibati Xətalar Məcəlləsinin 158-ci maddəsinə dəyişiklik edilib. O, ölkədə məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə görə məsuliyyəti nəzərdə tutur. Maddə üzrə "təqsirkarın zərərçəkmiş şəxslərə zərər yetirməsinə görə cərimələr" müəyyən edilir.

Məişət zorakılığının qarşısının alınması məişət zorakılığı təhlükəsini aradan qaldırmaq üçün həyata keçirilən hüquqi, sosial və çəkindirici tədbirlər deməkdir. Qanunvericiliyə əsasən, məişət zorakılığının qarşısının alınması yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

Məişət zorakılığı ilə bağlı şikayətlərə baxılarkən aşağıdakı addımlar təmin edilir.

Məişət zorakılığı zəminində törədilmiş və ya qəsdən törədilmiş cinayət haqqında məlumatı özündə əks etdirən şikayət olduqda aşağıdakılar həyata keçirilir: şikayət aidiyyəti orqanlara ötürülür, şikayətçiyə hüquqları izah edilir, şikayətə və zorakılıq əməlinə səbəb olan halların təkrarlanmaması üçün tədbirlər görülür, zərərçəkmiş şəxsin təhlükəsizliyi təmin edilir, yardım mərkəzlərində müvəqqəti sığınacaq, yemək, geyim, tibbi və psixoloji yardım təmin edilir, zərərçəkmiş şəxsə mühafizə orderi verilir.

Mərkəzin tövsiyələrindən bəziləri aşağıdakıları əhatə edir:

- Məişət zorakılığının qarşısının alınması haqqında Qanunun qəbul edilməsindən on il keçməsinə baxmayaraq, onun icra mexanizmi hələ də qeyri-qənaətbəxş fəaliyyət göstərir. Biz, məhkəmə-profilaktika işini gücləndirməliyik. Bütün dünyada tətbiq edildiyi kimi, zorakılıq faktı baş verdikdə psixoloqlar, sosial işçilər, sosioloqlar və hüquq-mühafizə orqanlarının əməkdaşları əlaqələndirilmiş şəkildə hərəkət etməlidirlər.
- Mövcud mexanizmin təkmilləşdirilməsi üçün kifayət qədər səy göstərilmədiyi üçün nəzərdən keçirilməsi tələb olunan çoxsaylı boşluqlar mövcuddur. Məişət zorakılığının qarşısının alınması haqqında Qanunda nəzərdə tutulmuş müdafiə mexanizminin konkret aspektlərinin dəqiqləşdirilməsi tələb olunur.
- Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri gender əsaslı zorakılıq hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi, əmək bazarında qadınlar və kişilər üçün bərabər imkanların yaradılması, qadınların vəzifədə irəliləmək və liderlik imkanlarının daha da genişləndirilməsidir.
- Sığınacaqlarla birlikdə Psixoloji Dəstək Çağrı Mərkəzi yaradılmalı və onun əsas funksiyası zorakılığın ilkin mərhələdə aşkar edilməsi və onun cinayətə çevrilməsinin qarşısının alınmasıdır. Gender əsaslı zorakılığın qarşısını almağın ən təsirli yolu qadınlara qarşı fiziki zorakılıqdan əvvəl gender fərqləri, münaqişə və psixoloji təzyiqlər zamanı qadınlara psixoloji dəstək verəcək Çağrı Mərkəzinin yaradılmasıdır. Mərkəz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Bakı şəhərində təşkil olunacaq və pulsuz müraciətlər və məsləhətlər vasitəsilə dəstək göstərəcək.

BMT-nin Əhali Fondu (UNFPA) bu yaxınlarda COVİD-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin həyatına təsirinə dair çevik gender qiymətləndirməsini həyata keçirdi (2020). Araşdırmaya görə, qadınlar daha çox ayrı-seçkiliyə məruz qaldıqlarını bildiriblər. Həmçinin, qadınların böyük əksəriyyəti məişət zorakılığı ilə üzləşdiyi təqdirdə hara müraciət edəcəyini bilmir.

Bu sənəd qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi sahəsində çalışan qurumlar arasında həmkar təcrübəsi mübadiləsini təşviq etmək məqsədi daşıyır və İstanbul Konvensiyası kimi tanınan Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyasına əsaslanır. Bu nəşr yaxşı və ya ümidverici təcrübələr haqqında həmkarlar arasında mübadilələri təşviq etmək və qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi sahəsində qanunvericiliyi və siyasəti təkmilləşdirmək üçün dövlət qurumlarının ata biləcəyi praktik addımları göstərir. Bu vəsait İstanbul Konvensiyasının ratifikasiyası prosesi ilə bağlı harada olmasından asılı olmayaraq, hər bir ölkənin istifadəsi üçün uyğundur – o, qadınlara qarşı zorakılığın qarşısının alınması və ona qarşı daha yaxşı mübarizə aparmaq və öz ərazisində qadınların hüquqlarını qorumaq istəyən hər bir üzv dövləti dəstəkləyəcək metodlar təklif etməyə çalışır.

AZE

Avropa İttifaqına Üzv Dövlətlər öz təcrübələrini, resurs və müqəddəratlarını birləşdirmək qərarına gəlmişlər. Onlar birlikdə sabitlik, demokratiya və davamlı inkişaf zonası qurmuş, eyni zamanda mədəni müxtəlifliyi, tolerantlıq və fərdi azadlıqlarını qoruyub saxlamışlar. Avropa İttifaqı hüdudlarından kənarda olan ölkə və xalqlarla öz nailiyyət və dəyərlərini bölüşmək öhdəliyinə sadiq qalır.

**http://europa.eu**

Avropa Şurası qitənin insan hüquqlarının müdafiəsi sahəsindəki aparıcı təşkilatdır. O, Avropa İttifaqının bünün üzvləri də daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqlarını, demokratiyanı və hüququn aliliyini qorumaq üçün nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıb. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə həyata keçirilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir